Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111 (8134) ÇƏRŞƏNBƏ, 22 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Yenilənmiş elektrik qatarları təzələnmiş dəmir yolları ilə Abşerona qayıdır

### Bu, hərəkətin sürətini və rahatlığını artırmaqla sakinləri hədsiz sevindirir









Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzrə görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.

Prezident İlham Əliyevi salamlayan Sabunçu qəsəbəsinin sakini **Arazxanım MƏRDANOVA** dedi:

- Bizim Sabunçu qəsəbəsinə xoş gəlmisiniz. Bu gün Sizin sayənizdə burada möhtəşəm dəmir yolu vağzalı açılır. Siz bunları xalqımızı, övladlarımızı düşünüb edirsiniz. Allah Sizə cansağlığı versin. Siz ulu öndərimizin davamçısısınız. Biz Sizə güvənirik, Azərbaycanımız Sizə güvənir. Siz bizim böyük dayağımızsınız. Sakinlər adından Sizə sağ olun deyirik.

Prezident **İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, bu gün bu gözəl vağzal kompleksi istifadəyə verilir. Çox gözəl binadır. Bu binanın tikintisi bir daha onu göstərir ki, hər bir qəsəbənin problemləri diqqət mərkəzindədir. Çalışırıq ki, bütün qəsəbələrdə quruculuq-abadlıq işləri aparılsın, vətəndaşlar üçün yeni imkanlar yaradılsın. Dünyanın ən qabaqcıl şirkətlərindən birinin istehsalı olan yeni vaqonlar alınıb və bundan sonra gediş-gəliş çox rahat olacaq. Yol boyu Bakıxanov, Keşlə dayanacaqları da yenidən qurulub. Bu vağzal kompleksi də göz oxşayır. Şadam ki, bu gün belə bir gözəl tədbiri biz birlikdə qeyd edirik. Bu, bir daha onu göstərir ki, şəhər nəqliyyatına çox böyük diqqət yetirilir. İndi avtobuslar alınıb, bu il əlavə 300 avtobus alınacaq. Metro tikintisi gedir, yeni vaqonlar alınır, yollar çəkilir, dəmir yolu vağzalları, yeni nəqliyyat infrastrukturumuz kompleks şəkildə yenilənir. Sizdə işlər necədir?

**Sakinlər:** Sağ olun, minnətdarıq.

Prezident **İlham ƏLİYEV:** Həllini gözləyən, bu gün hələ həll olunmamış hansı məsələlər var?

Sakin **Əkbər HÜSEYNOV:** Adi bir qəsəbədə belə gözəl vağzal inşa olunub. Bu, çox gözəldir. Bu qəsəbənin sakiniyəm, 70 ilə yaxındır ki, burada yaşayıram. Ancaq nə vaxtsa belə bir möhtəşəm binanın inşa olunacağı heç ağlımıza da gəlməzdi. Hər bir açılışı televizordan görəndə fərəhlənirdik. Bu gün özüm bu açılışda iştirak edirəm və bunu əyani surətdə görürəm. Çox sevinirəm. Əlbəttə ki, bunlar hamısı xalqın rifah halının yaxşılaşdırılması üçün Sizin gördüyünüz işlərdir. Sizə təşəkkür edirik.

Prezident **İlham ƏLİYEV:** Sağ olun. Demək olar ki, hər gün ölkəmizdə - Bakıda, bütün rayonlarda, Bakıətrafı qəsəbələrdə, hər yerdə hansısa obyektin açılışı olur, istər sosial obyekt, istər infrastruktur obyekti. İndi yol çəkilişi sürətlə gedir, Sabunçu rayonunun da yollarının təmiri ilə bağlı işlər görülür. Yəni çalışırıq maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar, maddi rifah artsın, dolanışıq daha yaxşı olsun. Ona görə bu istiqamətdə bundan sonra da addımlar atılacaq. Pensiyaların, əməkhaqlarının, müavinətlərin artırılması gündəlikdə duran məsələlərdən biridir. Belə gözəl binalar vətəndaşlara xidmət edəcək.

Sakin **Əkbər HÜSEYNOV:** Əlbəttə, hamısı Sizin sayənizdədir. Bu dəmir yolunun fəaliyyətə başlaması avtobusların yükünü xeyli azaldacaq.

Prezident **İlham ƏLİYEV:** Əlbəttə, vaxt baxımından da çox sərfəli olacaq.

**Sakinlər:** Təşəkkür edirik, sağ olun.

Prezident **İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev yaxınlıqdakı mağazaya gəldi, alıcılar və satıcılar ilə söhbət etdi.

*Ardı 2-ci səh.*

## Azərbaycanla Rusiya arasında elm sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı zəmin var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyev Azərbaycan Respublikasının Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə Rusiya Elmlər Akademiyası üçün böyük önəm daşıdığını dedi. Əvvəlki illərdə elmlər akademiyaları arasında birgə səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Aleksandr Sergeyev sonrakı dövrlərdə elmi əlaqələrin qırıldığını vurğulayaraq indi bu əlaqələrin yenidən bərpa edilməsinin zəruriliyini bildirdi. O, ölkəmizə səfərinin əsas məqsədinin bundan ibarət olduğunu diqqətə çatdırdı.

Dövlət başçısı elm sahəsində əvvəllər mövcud olan ənənəvi əlaqələrin hazırkı dövr və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas yaratdığını bildirdi. Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərə toxunan dövlət başçısı ölkələrimizin gələcək elmi əməkdaşlığı üçün yaxşı potensialın olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının elm sahəsində də əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi. Dövlət başçısı Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin Azərbaycana səfərinin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafı və bu sahədə konkret addımların atılması işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Kürdəxanı qəsəbəsində olub



Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olublar.

*Ardı 3-cü səh.*

## 3 ayda 415,3 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub

### Bu, ötən ilin eyni dövründəkindən 16,5 faiz çoxdur



Sosial-iqtisadi sahələrdə həyata keçirilən islahatlar ardıcıllıqla davam edir. Bunun sayəsində qeyri-neft məhsullarının istehsalı artır, ixracı stimullaşdırılır, regionların potensialı daha sürətlə üzə çıxır, ölkədə biznes-investisiya mühiti təkmilləşdirilir.

Həmçinin özəl sektorun genişlənib güclənməsi, kiçik və orta sahibkarlığa dövlət dəstəyi, islahatlar nəticəsində yaranan iqtisadi imkanlar milli iqtisadiyyatın inkişafına əlavə təkan verir.

Xüsusilə vurğulamaq lazımdır ki, ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlar iqtisadiyyatın inkişafına müsbət təsir göstərməklə yanaşı, ölkəmizin ixracdan gələn gəlirlərini də artırır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-mart aylarında xarici ticarət dövriyyəsinin dəyəri 7 milyard 979 milyon dollar olub və xarici ticarətdə 1,7 milyard dollardan çox müsbət ticarət saldosu yaranıb.

Bu dövr ərzində qeyri-neft məhsullarının ixracı keçən ilin müvafiq dövrü ilə müqayisədə 16,5 faiz artıb.

*Ardı 5-ci səh.*

## Yeni təlim Azərbaycanın hərbi qüdrətini təsdiqləyir

### 10 minədək şəxsi heyət, 150 tank və zirehli texnika, 200-dək raket və artilleriya, 35 təyyarə və helikopter...

Ermənistanla aparılan sülh danışıqları hələ ki nəticəsizdir. Bu ölkənin yeni rəhbərliyi ilk vaxtlardan nizamlama prosesinin davamına tərəfdar olduğunu bildirsə də, sanki yaxasını bütün proseslərdən kənara çəkməyə, məsuliyyətdən uzaq olmağa çalışır.



Lakin Yerevanda hər kəs yaxşı anlayır ki, düşdükləri acınacaqlı durumun, illərdir səfalət içərisində yaşamalarının yeganə səbəbi Azərbaycan torpaqlarını işğal altında saxlamalarıdır.

Vaxtilə Ermənistana rəhbərlik etmiş terrorçu və cinayətkar rejim aparılan sülh danışıqlarında da öz mahiyyətinə uyğun olaraq qeyri-konstruktiv olub aqressiv mövqe nümayiş etdirirdi. Nəticə etibarilə bunun da ağrı-acısını Ermənistan və onun əhalisi indinin özündə də çəkməkdədir.

*Ardı 3-cü səh.*

## Sərgilər Azərbaycanın nailiyyətlərini əyani şəkildə nümayiş etdirir

Hər bir ölkənin iqtisadiyyat, elm, texnika, mədəniyyət, incəsənət və digər sahələrdə qazandığı nailiyyətləri əyani göstərən ən əlverişli vasitələrdən biri sərgilərdir. Əhatə dairəsinə görə yerli, milli, beynəlxalq, ümumdünya sərgiləri olur.

Elə sərgilər var ki, müxtəlif sahələri əhatə edir. Bir çoxu isə ixtisaslaşmış xarakter daşıyır. Azərbaycan beynəlxalq sərgilərdə fəal iştirak edən ölkələrdəndir. Ölkəmizdə də hər il çoxsaylı sərgilər keçirilir. Xüsusilə son illərdə Azərbaycanın evsahibliyi etdiyi belə tədbirlər mütəşəkkilliyi, yüksək səviyyədə təşkil edilməsi ilə fərqlənir.



Cari ildə sərgi və konfrans təşkilatçıları - "Iteca Caspian" və "Caspian Event Organisers" (CEO) şirkətləri Azərbaycanda dövlət strukturlarının dəstəyi ilə 24 sərgi keçirməyi planlaşdırıb.

*Ardı 5-ci səh.*

## Yeni əkin sahələri suya tələbatı artırıb



Balakən rayonunda aqrar sektorda işin artması, əkin dövriyyəsinə yeni torpaq sahələrinin cəlb olunması suvarma suyuna olan tələbata da təsir edib.

Balakən Suvarma Sistemləri İdarəsinin rəisi Ruslan Poladov deyir ki, balansımızda 6822 hektar suvarılan torpaq sahəsi var: "Sahələr əsasən kanallar hesabına suvarılır.

*Ardı 6-cı səh.*

## N.Paşinyanla separatçılar arasında münasibət gərginləşir

### Ermənistan parlamenti məhkəmə binalarına giriş-çıxışın bağlanması məsələsini müzakirəyə çıxarır

Ermənistanda baş verən son hadisələr bu ölkədə mövcud gərginliyin daha da artacağını göstərir. Eyni zamanda yaşananlar bu ölkədə artıq məhkəmə sisteminin də nəzarət altına alınacağını, Yerevanla Qarabağ separatçıları arasında ziddiyyətlərin daha da dərinləşəcəyini nümayiş etdirir.

Baş verənləri şərh edən erməni politoloq Aleksandr İsgəndəryan qeyd edib ki, Ermənistanda hakimiyyətin bütün qollarında institutsuzlaşdırma gedir.

Onun sözlərinə görə, hazırda baş verənlər gözlənilməz deyil: "Hakimiyyətin tranziti prosesi davam edir, amma bu, bizim keçən il müşahidə etdiyimiz metodlarla aparılır. Əvvəlcə bu metodlarla icraedici, daha sonra qanunverici hakimiyyət ələ alındı. Aralıq dönəmdə böyük şəhərlərin lokal hakimiyyət orqanları ələ keçirildi. Küçələrdə dominantlıq hazırkı hakimiyyətin yeganə fəaliyyət alətidir. Hökumət bununla kifayətlənməyəcək. Biz dövlət orqanlarının çox funksiyalarının kollapsını indiyə qədər müşahidə etmişik.

*Ardı 7-ci səh.*

# Yenilənmiş elektrik qatarları təzələnmiş dəmir yolları ilə Abşerona qayıdır

## Bu, hərəkətin sürətini və rahatlığını artırmaqla sakinləri hədsiz sevindirir












*Əvvəli 1-ci səh.*

Qarabağ müharibəsi əlili **Məzahir ORUCOV:** Xoş gəlmisiniz, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

Şəhid anası **Səyyarə NƏZƏROVA:** Xoş gəlmisiniz, cənab Prezident.

Prezident **İlham ƏLİYEV:** Sağ olun, necəsiniz?

**Səyyarə NƏZƏROVA:** Çox sağ olun, Allah Sizdən, dövlətimizdən razı olsun. Siz çox gözəl insansınız. Bizim dövlətimiz çox yaxşı dövlətdir. Çünki hər yerdə əmin-amanlıqdır, hamı qayğımızı çəkir, çox sağ olun.

**Məzahir ORUCOV:** Cənab Prezident, biz Qarabağ qaziləri Sizinlə fəxr edirik. Allah Sizi, dövlətimizi qorusun.

Prezident **İlham ƏLİYEV:** Ticarət necə gedir?

**Səyyarə NƏZƏROVA:** Çox yaxşı, şükür Allaha, hər günümüzə min şükür.

Prezident **İlham ƏLİYEV:** Məhsulların neçə faizi yerli mallardır?

**Satıcı:** Demək olar ki, 90 faizi.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

Prezident **İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli sərəncamına əsasən, Bakı sərnişin - Sabunçu dəmir yolu yenidən inşa olunub. Layihənin tərkib hissəsi olan Sabunçu dəmir yolu vağzalı tamamilə yenidən qurulub. İnşasına ötən ilin iyunundan başlanılan üçmərtəbəli binanın ümumi sahəsi 4,1 min kvadratmetrdir. Artıq Sabunçu dəmir yolu vağzalı kompleksi sərnişinlərə xidmət göstərməyə tam hazırdır.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra xatirə şəkli çəkdirildi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov dövlət başçısına layihə üzrə görülən və görüləcək işlər barədə ətraflı məlumat verdi.

Qeyd edildi ki, layihəyə əsasən Bakı dairəvi dəmiryol xətti üzrə görülən işlərin davamı olaraq Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil keçidi, həmçinin Kürdəxanı kəndində uzunluqları 22 metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilib.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalında yaradılan şəraitlə tanış oldu.

Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Hər üç mərtəbədə ticarət mərkəzlərinin yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır. Burada müasir dizaynla tərtib olunan istirahət guşələri sərnişinlərin rahatlığını təmin edəcək. İşçilərin əmək fəaliyyəti üçün bütün lazımi imkanın olduğu binada, eyni zamanda, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün də xüsusi şərait yaradılıb. Vağzalda müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb, iki piyada alt keçidi inşa edilib. Layihə çərçivəsində Sabunçu vağzalında iki yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb. Stansiyadakı üç dəmiryol xətti tamamilə yenidən qurulub. Sabunçu vağzalında dəmiryol polisinin üçmərtəbəli binası da tikilib və zəruri avadanlıqla təchiz olunub.

Sonra Prezident İlham Əliyev Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzrə görülən işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşdü.

Qeyd edildi ki, bu marşrut üzrə dəmiryol xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir. Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulub.

Bu gün Azərbaycan nəqliyyatının ən böyük sahələrindən biri dəmiryol sektorudur. Azərbaycanın nəqliyyat sisteminin əsas sahələrindən olan dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir. Belə ki, son zamanlar bu sahənin inkişafı, yüksək dünya standartlarına çatdırılması istiqamətində məqsədyönlü layihələr, böyükhəcmli işlər həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, qəbul olunan dövlət proqramları bu sahədə islahatların daha da sürətlənməsinə, dəmiryol nəqliyyatı vasitələrinin müasirləşdirilməsinə müsbət təsirini göstərib. Bakı sərnişin - Sabunçu dəmiryol xəttinin yenilənməsi də bu işlərin davamıdır.

Dövlət başçısı Bakıxanov dayanacağında yaradılan şəraitlə tanış oldu.

Dayanacağın ümumi sahəsi 7 min kvadratmetrdir. Burada iki turniket binası və platforma tikilib. Bundan başqa, 16 turniket, uzunluğu 30 metr, eni 3,9 metr olan yerüstü piyada keçidi inşa edilib. Bakıxanov dayanacağının ərazisində yaşıllıqlar salınıb, avtomobillər üçün dayanacaq yaradılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş platformalarda sərnişinlərin rahatlığı üçün hər cür şərait var.

Bildirildi ki, Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzərində yerləşən Koroğlu dayanacağının ümumi sahəsi isə 15 min kvadratmetrdir. Dayanacaqda iki turniket binası inşa edilib, 17 turniket, müasir işıqlandırma dirəkləri, oturacaqlar quraşdırılıb.

Sonra Prezident İlham Əliyev Keşlə dayanacağında yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 10 min kvadratmetr olan Keşlə dayanacağında da iki turniket binası tikilib. Bundan başqa, dayanacaqda iki platforma, 10 turniket, uzunluğu 39 metr, eni isə 2,5 metr olan yeraltı piyada keçidi mövcuddur. Ətrafda yaşıllıq və abadlıq işləri görülüb, avtomobillər üçün dayanacaq yaradılıb. Platformada müasir işıqlandırma və yanğınsöndürmə sistemi quraşdırılıb.

Diqqətə çatdırıldı ki, Nərimanov stansiyasının binası da əsaslı təmir edilib, platformalar və buradakı yerüstü piyada keçidi yenidən qurulub. Stansiyada yeni dəmir yolları salınıb və müasir işıqlandırma dirəkləri quraşdırılıb. Bakı sərnişin - Sabunçu dəmiryol xətti üzrə bütün rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən qurulub.

Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmiryol infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf strategiyasının bəhrəsidir. Bu strategiya Azərbaycanı Qərb ilə Şərq, Şimal ilə Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Prezident İlham Əliyevin görülən işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatdı.

Sonda xatirə şəkli çəkdirildi.

---

# "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 407; 2012, № 2, maddə 113; 2014, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Rüfət Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Mərkəzi Bank sədrinin müavini
Azərbaycan Respublikasının Çexiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Çexiya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2019-cu il*

---

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına təbriklərimi, rifah və firavanlıq arzularımı çatdırıram.

*Hörmətlə,*

***FİLİP,***
***Belçikalıların Kralı***

---

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri***

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Kürdəxanı qəsəbəsində olub

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əvvəlcə Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbə gəldilər. Məlumat verildi ki, Kürdəxanı qəsəbəsində 6 min nəfər əhali yaşayır. Burada bir məktəb var. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu təhsil ocağının siniflərinə baxdılar, müəllim və şagirdlərlə görüşdülər.

113 saylı tam orta məktəb 2 korpusdan ibarətdir. Birinci korpus 1971-ci ildə inşa olunub. Sonuncu dəfə burada cari təmir işləri 2006-cı ildə aparılıb. Tədrisin Azərbaycan dilində aparıldığı məktəbdə ümumilikdə 2320 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100 müəllim məşğul olur. Burada tədris ikinövbəlidir. Mehriban Əliyevaya məlumat verildi ki, məktəbin 2-ci korpusu isə 2008-ci ildə inşa olunub. Birinci vitse-prezident məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verdi.









❖ ❖ ❖

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Kürdəxanı qəsəbəsinin sakini Telman Əliyevin evində qonaq oldular.

Qeyd edək ki, Telman Əliyev ailəsi ilə birlikdə Mərdəkan qəsəbəsində yerləşən ziyarətgahda olarkən Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşüblər və Mehriban Əliyevanı evlərinə çay süfrəsinə dəvət ediblər.

Telman Əliyevin ailəsi ilə görüşdə Mehriban Əliyeva bildirdi ki, qəsəbənin sosial-iqtisadi inkişafı, iş yerlərinin yaradılması istiqamətində işlər bundan sonra da davam etdiriləcək. Ailə üzvləri Kürdəxanı qəsəbəsinin inkişafına göstərdiyi diqqətə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq etdilər.

Sonda Telman Əliyevin ailəsinin adından Mehriban Əliyevaya hədiyyə təqdim olundu və xatirə şəkli çəkdirildi.

# Müdafiə naziri təlim mərkəzində bölmələrin məşqlərini izləyib





Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə rəhbərlik edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti təlim məntəqələrinə baş çəkib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əsas komanda məntəqəsində general-polkovnik Z.Həsənovun rəhbərliyi ilə keçirilən toplantıda dinamik dəyişən vəziyyət və qəbul edilən qərarlara dair komandir-rəis heyəti və digər vəzifəli şəxslərin məruzələri dinlənilib. Eyni zamanda, təlimlərin planına uyğun olaraq ərazinin kəşfi nəticəsində əldə olunan məlumatlar əsasında təlim iştirakçıları maket üzərində tapşırıqların dəqiqləşdirilməsi, qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkilini həyata keçiriblər.

Alınmış döyüş tapşırığı əsasında keçirilən bölmələrin məşqlərini izləyən müdafiə naziri hərbi qulluqçular qarşısında çıxış edib, tövsiyələrini çatdırıb və xidmətdə fərqlənən bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib.

Bölmələrin döyüş atışlı taktiki məşğələsində şəxsi heyət müxtəlif maneələri dəf etməyi və düşmən üzərinə hücumun yerinə yetirilməsini nümayiş edib.

Ərazidə yaradılmış təlim nöqtələrinə, sinif otaqlarına baş çəkən nazir təlimə cəlb edilən döyüş texnikalarını da yoxlayıb, silah-sursat və şəxsi heyətin təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Hərbi hissədə yeni tikilmiş yeməkxanada olan general-polkovnik Zakir Həsənov burada yaradılan şəraitlə tanış olub, ərzaq anbarına baxış keçirib, saxlanılan məhsulların keyfiyyətini yoxlayıb və şəxsi heyətlə birgə nahar edib.

# Daxili işlər naziri Qəbələdə və Bakıda sıra baxışları keçirib



Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elanlara uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov mayın 18-də Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Qəbələ rayonundakı hərbi hissəsində respublikanın Şirvan və şimal-qərb zonalarının ərazi polis orqanlarında, mayın 21-də Əlahiddə Çevik Polis Alayında isə Bakı Şəhər Baş Polis İdarəsinin tabeli qurumlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışlarını keçirib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin aidiyyəti baş idarə və şəhər, rayon polis şöbələri rəislərinin də iştirak etdikləri hər iki sıra baxışında paytaxtda və qeyd olunan bölgələrdə yaşayan, post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən ümumilikdə 563 şəxs iştirak edib.

Nazir hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə ayrı-ayrılıqda maraqlanıb. İddiaçıların arasından daha hazırlıqlı olan 361 nəfər seçilib. Onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün müvafiq tapşırıqlar verilib.

Namizədlərlə görüşdə çıxış edən nazir son illər daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mükəmməl təhsilli, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladan nazir bu istiqamətdə zəruri addımların atıldığını bildirib. Daxili işlər naziri bu seçimlərin də müvafiq sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti əyani təzahürü olduğunu bildirib.

Qeyd olunub ki, ümumilikdə kadrların hazırlıq səviyyəsinin artırılması, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi ölkə və DİN rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdən və daim nəzarətdə saxlanılan məsələlərdəndir.

Nazir R.Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək onlara tövsiyələrini verib, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Polis orqanlarında vakant olan post-patrul xidməti vəzifələrində xidmətə qəbulla bağlı növbəti belə tədbir iyunun 8-də DİN-in Daxili Qoşunlarının Gəncədəki hərbi hissəsində keçiriləcək.

# Yeni təlim Azərbaycanın hərbi qüdrətini təsdiqləyir

## 10 minədək şəxsi heyət, 150 tank və zirehli texnika, 200-dək raket və artilleriya, 35 təyyarə və helikopter...

*Əvvəli 1-ci səh.*

Çünki Azərbaycan Ermənistanı işğalçı siyasətinə əvəz olaraq Cənubi Qafqazda tamamilə təcrid vəziyyətinə salıb, onu bütün layihələrdən kənarda saxlayıb. Beləliklə, bu ölkə öz təcavüzkar işğalçı siyasətinin qurbanı olub.

Nikol Paşinyan isə məhz terrorçu hakimiyyətin səhvləri üzərindən hakimiyyətə gəlib. Belə ki, bu səhvlərdən biri S.Sarkisyanın öz xalqını yoxsulluq və səfalət içində saxlaması idi. Bunun da əsas səbəbi, əvvəldə qeyd edildiyi kimi, Azərbaycanın Ermənistanı təcavüzkar siyasətinə görə cəzalandırmasıdır.

Ona görə Ermənistanın hazırkı rəhbərliyi xalqın rifahını və dövlətin inkişafını təmin etmək üçün ilk növbədə sülh danışıqlarında konstruktiv olmalı, təcavüzkar siyasətə son qoymalı, işğal olunmuş Azərbaycan ərazilərindən qoşunlarını çəkməlidir. Düzdür, danışıqlar prosesinə yeni təkan verilib, Ermənistan rəhbərliyinin istəyinin əksinə olaraq format dəyişilməz qalıb. Amma hələ ki aparılan danışıqlarda ümidverici heç nə yoxdur. Azərbaycan tərəfi danışıqlar prosesinə sadiq və substantiv danışıqlara hər zaman hazır olduğunu daim bəyan edir. Rəsmi Bakı münaqişənin nəticəyə yönəlik və intensiv danışıqlar yolu ilə həlli istiqamətində həmsədrlərin səylərini dəstəkləyir. Bu mövqe son olaraq Vyana görüşündə bir daha ifadə olundu.

Aparılan danışıqlarla paralel olaraq Azərbaycan dövləti öz Silahlı Qüvvələrinin daha da gücləndirilməsinə, ən müasir döyüş imkanlarını mənimsəməsinə xüsusi diqqət ayırır. Çünki danışıqlar prosesinə ümid tam kəsilərsə, o zaman Azərbaycan Ordusu öz sözünü deyəcək. Rəsmi Bakı bunu gizlətmir və indiyədək keçirilən bütün hərbi paradlar Azərbaycanda aparılan intensiv ordu quruculuğunu, Silahlı Qüvvələrimizin arsenalının ən modern silah və texnika ilə zənginləşdirildiyini bütün dünyaya nümayiş etdirib. Bu gün dünyanın hərbi sənayesi, inkişaf etmiş dövlətlərin malik olduqları silah və texnikalar Azərbaycanda var. Ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit-raket sistemləri, özüyeriyən artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket, zenit-raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları və digər texnikalar bu gün Azərbaycanın Ermənistan qarşısında əzici üstünlüyünü tam təmin edir. O cümlədən hava hücumundan müdafiə sistemimiz hava məkanını inamlı şəkildə nəzarətdə saxlayır. Bu istiqamətdə ordumuzun döyüş qabiliyyəti ən yaxşı silah istehsalçılarının texnologiyaları ilə güclənib.

Respublikamızın özünün də güclü hərbi sənaye kompleksi formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Beləliklə, Azərbaycanda orduya ən müasir silahların cəlb olunması və döyüş qabiliyyətinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bununla yanaşı, ordunun döyüş vərdiş və təcrübəsinin artırılması da daim qarşıda duran əsas vəzifələrdəndir. Əvvəldən təsdiq olunmuş plana əsasən il ərzində ordumuzun əməliyyat-taktiki, komanda-qərargah təlimləri keçirilir. Diqqəti çəkən odur ki, son illərdə belə təlimlərin sayı artıb.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, birlik və birləşmələrin iştirakı ilə növbəti genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb. Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Mayın 24-dək davam edəcək təlimlərin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir. Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

Silahlı Qüvvələrimizin mütəmadi olaraq keçirilən təlimləri də ordumuzun malik olduğu gücün praktik təsdiqidir. Artıq iki gündür başlayan yeni hərbi təlim də ordumuzun döyüş imkanlarının nümayişi kimi diqqəti cəlb edir. Ən mühümü odur ki, ordumuzun təlimləri hər dəfə Ermənistanda ciddi narahatlıqla qarşılanır. Çünki Yerevanda yaxşı bilirlər ki, yenidən hərbi əməliyyatlar başlayarsa, güclü Azərbaycan Ermənistanı sarsıdıcı məğlubiyyətə uğradacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Təlimlərdə qoşunların yerdəyişməsi, qüvvələrin ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub



Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin rəhbərinin qəbul etdiyi qərara əsasən, qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, zərbə qruplaşmalarının yaradılması və müəyyənləşdirilən istiqamətlərdə tətbiqinə hazırlanması, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqları yerinə yetirirlər.

# Azərbaycan tarix elminə prezident qayğısı

## Tarix İnstitutu son 15 ildə















### Cümhuriyyət tarixi institutun əsas tədqiqat istiqamətlərindən biridir

İnstitutda ayrıca *"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi"* şöbəsi fəaliyyət göstərir. Bütün Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin hərtərəfli və dərindən araşdırılması üçün mühüm işlər görülmüşdür. Şöbə rəhbəri Nigar Maksvelin tərtib etdiyi *"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində"* (Azərbaycan və rus dillərində). Bakı, 2008-2011, sənədlər toplusu, *"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Hindistan Milli Arxivinin sənədlərində"* sənədlər və materiallar toplusu, şöbə əməkdaşlarının nəşr etdirdikləri monoqrafik tədqiqatlar *("Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи"; R.H.Rüstəmov, Ş.F.Rəhmanzadə, Ə.F.Məmmədov, İ.H.Əliyeva. "Azərbaycan Xalq Cümhuriyyəti Xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü" (Azərbaycan, rus və gürcü dillərində); R.Bayramova. "Azərbaycanın Quba bölgəsi tarixin dönüş mərhələsində (1917-1920-ci illər)"* cümhuriyyət tarixinə həsr olunmuş mühüm əsərlərdir. Ulu öndərin vəsiyyətinə əsasən Prezident İlham Əliyevin nəşr etdirdiyi ikicildlik *"Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"* (baş redaktoru Yaqub Mahmudov) cümhuriyyət tariximizə çox mühüm töhfədir. 2018-ci ili ölkədə *"Cümhuriyyət ili"* elan etmiş ölkə rəhbəri Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasını daim diqqət mərkəzində saxlayır. 2018-ci il sentyabrın 15-də ölkə başçımızın təşəbbüsü və qardaş Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusu tərəfindən daşnak-bolşevik dəstələrindən azad olunmasının 100 illiyinin təntənəli hərbi paradla qeyd olunması tarixi keçmişimizin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması işinə dövlət qayğısının parlaq nümunəsidir.

İnstitutda cümhuriyyət tarixinin yeni səhifələrinin aşkar olunması üzərində tədqiqatlar davam etdirilir. Hazırda Britaniya arxivlərində cümhuriyyət tarixinə dair yeni arxiv sənədlərinin toplanması işi uğurla davam etdirilir.

### Xalqın öz tarixinə sahib çıxması ölkə başçısının böyük uğurudur

Prezident İlham Əliyev dünyada böyük maraq doğuran *inkişafın yeni Azərbaycan modelinin* müəllifidir. Bu modelin tərkib hissələrindən biri milli-mənəvi dirçəliş və xalqın öz tarixinə sahib çıxmasıdır. Bu baxımdan son 15 il ərzində A.A.Bakıxanov adına Tarix İnstitutunda **500**-ə yaxın tədqiqat əsərinin və sənəd toplularının nəşri Prezident İlham Əliyevin Azərbaycan tarix elminə göstərdiyi gündəlik dövlət qayğısının ən bariz nümunəsidir.

İnstitutda nəşr olunan əsərlər, demək olar ki, tarix elmimizin bütün dövrlərini və ən mühüm taleyüklü problemlərini əhatə edir. Belə ki, qədim dövrə aid nəşr olunan əsərlər içərisində S.Qaşqay. *"Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə"; S.Qaşqay. "Ön Asiyada miqrasiya proseslərinə dair"; F.K.Aliyeva. "Культура античного Азербайджана - Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э. - III в. н.э.)"; F.Osmanov. "Историйа и култура Кавказской Албании"; A.N.Əlimirzəyev. "Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV-III minilliklər)"; A.Алекперов. "Турки Азербайджана"; R.Məlikov. "Qədim fars kitabələri (transliterasiya, tərcümə, qlossari)"; "Azərbaycanın qədim tarixi yazılı mənbələrdə"; Y.M.Mahmudov. "Real tarix və "böyük Ermənistan" uydurması"* (Azərbaycan, rus, ingilis, ispan, ərəb, fransız, gürcü dillərində) kimi qiymətli tədqiqatlar xüsusi yer tutur.

İnstitutun ən mühüm şöbələrindən biri olan *Orta əsrlər tarixi* şöbəsində elmi araşdırmalara konseptual baxış əsaslı surətdə dəyişdirilmişdir. Əvvəllər yasaq olan mövzuların araşdırılması indi diqqət mərkəzində saxlanılır. Müxtəlif xarici dillərdə nəşr olunmuş ilk mənbələrin, əsərlərin araşdırılması və təhlil olunması şöbə əməkdaşlarının əsas tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. Son illərdə nəşr olunmuş əsərlər *(R.Ə.Ağayev. "Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVII əsrlər)"; F.A. Quseyn. "Osmano - Сефевидская война 1578-1590"; "Venesiyalılar Şah I Təhmasibin sarayında"; Y.M.Mahmudov. "Azərbaycan diplomatiyası" (Azərbaycan, rus, ingilis, italyan və türk dillərində); Y.M.Mahmudov. "Azerbaijan diplomacy in the second half of the XV - the begenning of the XVII centuries"; Y.M. Mahmudov. "Azerbaijan - Evrope diplomatic*

(Əvvəli qəzetin 21 may tarixli nömrəsində)

*relations"; V.Z.Piriyev. "Zəki Vəlidi Toğan. Azərbaycanın tarixi coğrafiyası"; Y.M.Mahmudov. "Azərbaycanın Avropa ölkələri ilə əlaqələri"; Y.M.Mahmudov, K.K.Şükürov. "Naxçıvan: tarixi və abidələri"; Ş.Hacıəli. "Şimal-Qərbi Azərbaycan: ingiloylar"; Y.M.Mahmudov. "Azərbaycan tarixi (erkən intibah dövrü)" (Azərbaycan, ingilis dillərində); Y.M.Mahmudov. "Azərbaycanlılar" (Azərbaycan, ingilis və rus dillərində); Y.M.Mahmudov. "Səyyahlar, kəşflər və Azərbaycan"; Y.M. Mahmudov, Kərim Şükürov. "Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi 1639-1828"; Q.Cəbiyev. "Girdiman tarixi"; T.Məmmədov. "Qafqaz Albaniyası ilk orta əsrlərdə"; Q.Ə. Hacıyev. "Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi"; X.S.Qasımov. "Orta əsrlərdə Azərbaycan mədəniyyəti"; Q.Ə.Hacıyev. "Qarabağın maddi və mənəvi mədəniyyəti" (Azərbaycan, ingilis və fransız dillərində); Э.Ламифова. "Илисуйское султанство"; Mehmet Saray. "Quzey və Güney Azərbaycan türklərinin tarixi"; Ş.Məmmədli. "XVII-XVIII əsrlərdə Azərbaycan-Hindistan ticarət əlaqələri"; Ə.S.Quliyev. "XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti (Mikel Membrenin "Səyahətnamə"si əsasında)"; Y.Gözəlova. "Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri"; T.H.Nəcəfli. "Qaraqoyunlular və Ağqoyunlular" (fars dilində); T.H.Nəcəfli. "Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri"; T.H.Nəcəfli. "Səfəvi-Osmanlı münasibətləri"; N.A.Əliyeva. "Əs-Səmaninin "Kitab əl-əriasib" əsəri Azərbaycan mədəniyyət tarixinin öyrənilməsində mənbə kimi"; D.M.Əzimli. "Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı - XVII əsrin I yarısı)"; A.Məmmədli. "Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri"; A.Məmmədli. "Haylada unudulan tariximiz və dambur"; N.A.Əliyeva. "İbn Makula və Azərbaycan"; N.A.Əliyeva. "Azərbaycan ziyalılarının elmi əlaqələri və tədris fəaliyyəti"; N.V.Mamedova. "Взаимоотношенйе Азербайджанского государства Сефевидов с Османской империей в начале XVI века во французской историографии"; N.F.Axundova. "Азербайджанские государства в XV-XVI веках"; M.Şərifli. "IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri"; N.F.Axundova. "Об истории Азербайджанских государств Каракоюнлу и Аккоюнлу. Выдержки из "Кембриджской истории Ирана" Туркменские династии. Перевод с английского Наргиз Ахундовой"; N.F.Axundova. "Об исторических соприкосновениях Азербайджанской и Китайской култур"; S.Rəhimova. "Dərbənd şəhərinin tarixindən"; Ş.F.Ferzelibeyli. "Azerbaycan ve Osmanlı İmeparatorluğu (XV-XVI. Yüzyıllar)"; R.Ağayev. "Ərəb Xilafəti dövründə Azərbaycan əhalisi"; N.F.Axundova. "Развитие суфизма в Азербайджане: Возвышение Шейха Сефи ад-Дина Исхака Ардебили в епоху Ильханата (на основе сведений западной историографии)"; Л.Р.Кафар-заде. "Вопросы раннесредневековой истории Азербайджана в англоязычной историографии")* Azərbaycan orta əsrşünaslığının həm mühüm uğurları, həm də tariximizə müstəqillik təfəkkürü ilə yanaşmaq nümunəsidir.

XIX yüzilliyin əvvəllərində Azərbaycan iki imperiya arasında bölüşdürüldükdən və ölkəmizin şimal torpaqlarına - İrəvan-Göyçə, Zəngəzur ellərinə və Qarabağa ermənilər köçürüldükdən sonra tariximiz daha çox saxtalaşdırmalara və təhriflərə məruz qalmışdır. Buna görə də *yeni* və *müasir* dövr tariximiz, demək olar ki, yenidən yazılır. Tariximizin bu dövrlərindən bəhs edən əsərlər institutun ən mühüm uğurlarından sayıla bilər. Bu sıradan *"Гарабаг. Кюрекчайский договор - 2005"; V.V.Umudlu. "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)"; N.R.Məmmədov. "Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər)"; F.Abbasov. "Гарабагское ханство"; Z.Hacıyeva. "Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu"; İ.M.Məmmədova. "Lənkəran xanlığı I Rusiya-İran müharibəsi dövründə"; Г.Дж.Наджафли. "Азербайджан в XVIII-XIX веках"; E.T.Babayev. "Gəncə xanlığının tarixindən"; Y.M.Mahmudov və Camal Mustafayev. "Şuşa-Pənahabad"; T.T.Mustafazadə. "Qarabağ xanlığı"; T.T.Mustafazade. "Karabağ hanlığı"; N.R.Məmmədov. "Azərbaycan Xankəndi şəhərinin tarixi"; G.C.Nəcəfli. "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri"; G.C.Necefli. "XVIII yüzyılda Azerbaycanda ermeni devleti yaratmaq teşebbüsleri"; "Qubadlı: Azərbaycan torpağı Zəngəzurun qapısı"; "Gubadly: The ancient Azerbaijani land Zangazur's gateway"; "Губадлы: ворота древней Азербайджанской земли Зангезур"; T.T.Mustafazadə. "XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətləri"; Q.N.Qasanov. "Из истории северо Азербайджанской деревни в конце XIX - начале XX вв."; S.Mustafaeva. "Из истории взаимосвйазей народов Азербайджана и Туркестана в борбе против гнета Российской империи"; R.Y.Niftəliyev. "XIX əsrin ikinci yarısında Azərbaycan kəndlilərinin azadlıq hərəkatı"; İ.M.Məmmədova. "Lənkəran xanlığı I Rusiya-İran müharibəsi dövründə"; H.Nərimanoğlu. "Zəngəzur: köç, deportasiya, soyqırımı, işğal tarixi"; Q.Raqimli. "Азер-байджанские ханства в дипломатических отношенийах Турции, России и Ирана (во второй половине XVIII - начале XIX века)"* kimi tədqiqat əsərləri xüsusilə diqqəti cəlb edir.

Dövlət başçımız 9 noyabr 2015-ci il tarixdə Akademiyada çıxış edərkən tarixçilərin əməyinə yenidən yüksək qiymət verdi və müstəqilliyimizin 25-ci ildönümü münasibəti ilə Azərbaycan Respublikasının tarixinə dair ümumiləşdirilmiş bir tədqiqat əsərinin yazılması barədə təşəbbüs irəli sürdü. Prezidentin bu çıxışından sonra institutun elmi kollektivi səfərbərliyə alındı. Və ölkə başçısının müəyyən etdiyi vaxtda iki cild, beş kitabdan ibarət olan *"Azərbaycan Respublikasının tarixi"* işıq üzü gördü. 145 ç.v. və 2316 səhifədən ibarət olan bu fundamental nəşrin 1-ci cildi ulu öndərin, 2-ci cildi isə Prezident İlham Əliyevin ölkəmizə başçılıq etdiyi dövrlərə həsr olunmuşdur.

### Kadr hazırlığı

İnstitutda tarix elminin gələcəyi nəzərə alınaraq yüksəkixtisaslı kadrlar hazırlanmasına xüsusi diqqət yetirilir. Dissertasiya şurasının fəaliyyəti diqqət mərkəzində saxlanılır. Şimali Azərbaycanın sovet dövrü tarixi yenidən yazılır. İtirilmiş torpaqlarımızın tarixi, qonşu xalqlarla tarixi əlaqələrimiz başlıca tədqiqat mövzularıdır. Bu baxımdan elmlər doktoru elmi dərəcəsi almaq üçün Güntəkin Nəcəflinin tədqiq etdiyi *"Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasəti (XVIII-XIX əsrin əvvəli)"*, Cəbi Bəhramovun *"Xəzər dənizinin Azərbaycan sektorunda neft hasilatı, neftçıxarma sənayesinin yaranması və inkişafı tarixi (XX əsrin II yarısı - XXI əsrin əvvəlləri)"*, İradə Əliyevanın *"Rusiya imperiyasının Şimali Azərbaycanda xristianlaşdırma siyasəti (XIX-XX əsrin əvvəlləri)"*, İlqar Niftəliyevin *"Azərbaycan SSR-də milli məsələ və kadr siyasəti (XX əsrin 20-30-cu illəri)"*, Vaqif Abışovun *"Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulmasının tarixşünaslığı"*, Aslan Xəlilovun *"Azərbaycan SSR-də sovet nomenklaturası: hakimiyyətdaxili mübarizə (XX əsrin 20-30-cu illəri"*, Firdovsiyyə Əhmədovanın *"Mərkəzi sovet hökumətinin Azərbaycana dair siyasəti (XX əsrin 20-30-cu illəri)"*, Kamran İsmayılovun *"Cümhuriyyət dövründə Azərbaycan bölgələrində ictimai-siyasi proseslər (1918-1920-ci illər)"*, Ramil Ağayevin *"Ərəb Xilafəti dövründə Azərbaycan əhalisinin etnik və sosial tərkibi (VII-IX əsrlər)"*, Vasif Qafarovun *"I Dünya müharibəsi illərində Osmanlı imperiyasının Azərbaycan siyasəti"* və digər mövzuların araşdırılması təqdirəlayiqdir. Alimlərimiz *"Şimal-Qərbi Azərbaycan"* (İradə Bağırova, Elvira Lətifova, Arzu Məmmədova, Şamil Rəhmanzadə, Şirinbəy Əliyev), *"Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri"* (Şamil Rəhmanzadə), *"İngiloylar"* (Şirinbəy Əliyev), *"İlisu sultanlığı"* (Elvira Lətifova), *"Car-Balakən camaatlığı"* (Arzu Məmmədova), *"Göynük hərəkatı"* (Ənvər Məmmədov), *"Dərbənd XIX-XX əsrin əvvəllərində"* (Asəf Hacıyev), *"Azərbaycan və Şimali Qafqaz xalqlarının qarşılıqlı əlaqələri"* (Sevinc Əliyeva), *"Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları"* (Fəxri Valehoğlu), *"Dağlıq Qarabağ gerçəklikləri, soyqırımı, terror, deportasiya, işğal"* (Nazim Məmmədov), *"Azərbaycan SSR ermənilərin ekspansionist planlarında"* (İlqar Niftəliyev), *"Əsrin müqaviləsi: Azərbaycan neft strategiyasının təməl daşı"* (Ərəstun Mehdiyev), *"Azərbaycan dövlətçiliyi tarixində gömrük işi"* (Röfət Quliyev), *"Azərbaycan Milli Elmlər Akademiyasının yaranması"* (Tamella Qocayeva), *"XX əsrdə Azərbaycan xalqına qarşı erməni terroru"* (Mehriban Əliyeva), *"Qafqazın Alman əhalisi"* (İkram Ağasiyev), *"Rusiyada Azərbaycan diasporu: yaranması və inkişaf meyilləri"* (Məryəm Seyidbəyli) kimi qiymətli tədqiqatları ilə tarix elmimizi yeni faktlar və elmi nəticələrlə zənginləşdirdilər.

Tariximizin ən prinsipial və taleyüklü problemlərinin araşdırılmasında istiqamətverici rol oynaması və dövlətçilik mövqeyinin əks olunması baxımından akademik Ramiz Mehdiyevin ayrı-ayrı illərdə nəşr etdirdiyi *"Azərbaycanlıların soyqırımı gerçəklikləri", "Gorus-2010: absurd teatrı mövsümü", "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi", "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix", "Şah İsmayıl Səfəvi: hökmdar və döyüşçünün portreti", "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında"* kimi qiymətli əsərləri tarix elmimizin inkişafına mühüm təkan verdi.

Tarix elmləri doktoru, professor Ə.M.Həsənovun müstəqil Azərbaycanın xarici siyasət tarixinə həsr olunmuş qiymətli tədqiqatları *("Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik siyasəti", "Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti", "Azərbaycanın geosiyasəti" və "Geosiyasət", "Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik siyasətinin əsasları", "Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti")* institutda fəaliyyət göstərən "Beynəlxalq münasibətlər tarixi", "Ümumi tarix", "Azərbaycan Respublikasının tarixi" və digər elmi tədqiqat şöbələrində çalışan alimlərin axtarışlarında istiqamətverici və metodoloji əsas rolunu oynayır, nəşr olunan əsərlərin keyfiyyətinə müsbət təsir göstərir.

Ölkə başçısının tapşırıqlarını yerinə yetirmək və bununla Tarix İnstitutunu mühüm Azərbaycançılıq mərkəzinə çevirmək üçün geniş struktur islahatları həyata keçirilmişdir. Bu islahatlar akademiyada həyata keçirilən geniş islahatlar proqramı çərçivəsində gerçəkləşdirilir.

Bu gün tarix institutunda aparılan tədqiqatlar ənənəvi strukturdan əsaslı surətdə fərqlənən yeni struktur çərçivəsində həyata keçirilir. Bu baxımdan yeni yaradılan *"Əliyevşünaslıq", "Azərbaycan Xalq Cümhuriyyəti tarixi", "Beynəlxalq münasibətlər tarixi", "Azərbaycan-Rusiya əlaqələri tarixi", "Azərbaycan xalqına qarşı soyqırımları tarixi", "Azərbaycanın tarixi demoqrafiyası", "Sənətkarlıq tarixi", "Mədəniyyət tarixi", "Azərbaycan Respublikası tarixi"* elmi tədqiqat şöbələrində aparılan araşdırmalar tariximizin bütün dövrlərini daha dolğun, daha ərtaflı və olduğu kimi işıqlandırmaq imkanı yaradır.

İnstitutda 2004-cü ilədək ulu öndərin dövlətçilik fəaliyyəti elmi tədqiqat planlarından kənarda qalsa da yeni yaradılmış "Əliyevşünaslıq" şöbəsi xətti ilə son illər ərzində nəşr olunmuş ikicildlik *"Heydər Əliyev"* fundamental araşdırması, ikicildlik *"Heydər Əliyev Azərbaycan elminin keşiyində"* sənədlər toplusu, *Yaqub Mahmudov. "Heydər Əliyev ideyalarının zəfər yürüşü", Якуб Махмудов. "Переможнийхыв идей Гейдара Алиева"; Ədalət Qasımov. "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası"; Ədalət Qasımov. "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi"; Leyla Hüseynova. "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri"* monoqrafiyaları təkcə Tarix İnstitutunun deyil, bütövlükdə akademiyanın, Azərbaycan elminin böyük uğuru sayıla bilər.

Bizim təşəbbüsümüz ilə Azərbaycan Televiziyasının "Azərbaycan Telefilm" yaradıcılıq birliyində ulu öndərə həsr olunmuş *"Dahi Azərbaycanlı"*, Prezident İlham Əliyevə həsr olunmuş *"Tariximizin keşiyində", "Şuşa-Pənahabad", "İrəvan xanlığı", "Sürgün"* tarixi-sənədli televiziya filmləri, həmçinin Azərbaycan, rus və ingilis dillərində *"İrəvan: gizlədilmiş həqiqətlər", "Zəngəzur", "Qarabağ: əcdadlarımızın mirası"* sənədli filmləri Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin və AMEA Tarix İnstitutunun birgə əməkdaşlığı çərçivəsində ərsəyə gəlmişdir.

Tarix İnstitutunda son illərdə *"Tarixi şəxsiyyətlərimizə sahib çıxaq"* layihəsi uğurla həyata keçirilməkdədir. Bu layihə çərçivəsində Bakı şəhərinin müxtəlif lisey və orta məktəblərində və Şəki şəhərində *"Heydər Əliyev", "Həsən Padşah", "Şah İsmayıl Səfəvi", "Şah Təhmasib Səfəvi", "Şah Abbas Səfəvi", "Nadir şah Əfşar", "Ağa Məhəmməd şah Qacar", "Vətən qeyrətli qadın hökmdarımız - Tomris", "Hacı Çələbi xan"* mövzularında elmi-praktik konfranslar keçirilmişdir. Bu konfransların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu əvəzsizdir.

2014-cü il iyul ayının 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan diplomatları qarşısında çıxışı zamanı demişdir: *"Bilirsiniz ki, alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaratmışlar. Bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçikhəcmli broşürlər də buraxılmalıdır"*. Ölkə başçısının həmin çağırışına cavab olaraq Tarix İnstitutu aşağıdakı yeni broşürləri nəşr etdirmişdir: Akademik Yaqub Mahmudovun elmi redaktorluğu ilə *G.C.Nəcəfli. "İrəvan qalası - qəhrəmanlıq qalası" (Azərbaycan, ingilis, rus, erməni və fars dillərində); G.C.Nəcəfli. "Cuxursəd hakimləri və İrəvan xanları" (Azərbaycan, ingilis, rus, erməni və fars dillərində); N.Mustafa. "Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" (Azərbaycan, ingilis, rus, erməni və fars dillərində); N.Mustafa. "Erməni vandallarının yox etdiyi Xan sarayı" (Azərbaycan, ingilis, rus, erməni və fars dillərində); G.C.Nəcəfli. "İrəvan xanlığının paytaxtı - İrəvan şəhəri" (Azərbaycan və rus dillərində); G.C.Nəcəfli. "Erməni vandallarının yox etdiyi İrəvan qalaları" (Azərbaycan və rus dillərində); G.C.Nəcəfli. "İrəvan xanlığının mahalları" (Azərbaycan və rus dillərində); İ.M.Məmmədova. "İrəvan xanlığının əhalisi" (Azərbaycan və rus dillərində).*

Prezident İlham Əliyev 9 noyabr 2015-ci ildə AMEA-nın 70 illik yubileyi ilə bağlı tədbirdə çıxışı zamanı son illərdə Tarix İnstitutunda aparılan elmi tədqiqatları yüksək qiymətləndirmişdir: *"Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır"*.

*Ölkə başçısı Tarix İnstitutunun fəaliyyətinə yüksək qiymət verməklə yanaşı, həm də tarixçilər qarşısına uzun müddət üçün proqram xarakterli vəzifələr qoymuşdur. Hazırda institut öz fəaliyyətində Prezidentin tövsiyə, çağırış və tapşırıqlarını əsas tutaraq tariximizi xalqımıza olduğu kimi təqdim etmək üçün geniş axtarışlar aparmaqda davam edir.*

**Yaqub MAHMUDOV,**
***AMEA-nın həqiqi üzvü,***
***əməkdar elm xadimi, dövlət mükafatı laureatı***

## Tovuzda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilir

Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atıb.

Bu fikir mayın 21-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfransda səsləndirilib.

Tədbirdə dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Regional konfransda ölkəmizdə dini sahəyə göstərilən diqqət və qayğıdan bəhs olunub, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyi, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığı diqqətə çatdırılıb. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.

Dövlət komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atır. Komitə sədri vurğulayıb ki, dövlətin dini icmalara göstərdiyi qayğı gündən-günə artmaqdadır. Böyük tarixə malik məbədlərin təmir və bərpası davam etdirilir, dini ayinlərin icrası üçün yüksək şərait yaradılır.

Milli Məclisin deputatı Qənirə Paşayeva Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində həyata keçirdiyi tədbirlərin önəminə toxunub. İslam dininin olduğu kimi, sağlam əsaslarla gənclərə təbliğ edilməsinin vacibliyini vurğulayan deputat bunun əksinin cəmiyyətdə bir çox fəsadlara səbəb olduğunu deyib. O qeyd edib ki, son dövrlər bəzi müsəlman ölkələrində baş verən münaqişələr dini radikalizm, məzhəb ayrı-seçkiliyi və xurafatdan qaynaqlanır. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizə yad olan ideologiyaların təbliğinin yolverilməz olduğunu dilə gətirən Q.Paşayeva cəmiyyətin düzgün dini biliklərlə məlumatlandırılmasının dini radikal qrupların təsirindən qorumaq baxımından olduqca əhəmiyyətli olduğunu bildirib. Deputat, həmçinin Azərbaycanda mövcud olan dövlət-din münasibətlərindən bəhs edib, ölkəmizin nümunəvi tolerantlıq modeli nümayiş etdirdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, müzakirələrlə yekunlaşan konfrans işini mayın 22-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

## Vətəndaşların müraciətləri dinlənilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Tovuz, sədrin birinci müavini Səyyad Salahlı Ağstafa, sədr müavini Gündüz İsmayılov isə Gədəbəy rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Tovuz, Şəmkir, Ağstafa, Qazax və Gədəbəy rayonlarının sakinlərinin iştirak etdiyi qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə komitənin bölgə şöbəsinə müvafiq tapşırıqlar verilib.

# Milli Məclis ötən ilin dövlət büdcəsinin icrasını müzakirəyə çıxarır

“2018-ci ildə ölkənin sosial-iqtisadi həyatında olduqca mühüm proseslər baş verib. İqtisadiyyata 17,2 milyard manat vəsait qoyulub, dinamik artım müşahidə edilib və Azərbaycan tarixində yaddaqalan il olub. Əldə edilən uğurlar məhz Azərbaycan dövlətinin, ölkə Prezidentinin iradəsi, artan imkanlar nəticəsində reallaşdı. Odur ki, biz bu tempi daim qoruyub saxlamalıyıq. Büdcənin xərclərinin səmərəliliyini təmin etməliyik, şəffaflığı daha da artırmalıyıq”.

Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında komitə sədri Ziyad Səmədzadə söylədi. “Azərbaycan Respublikasının 2018-ci dövlət büdcəsinin icrası haqqında” qanun layihəsini (birinci oxunuş) təqdim edən komitə sədri dedi ki, yeni qanuna görə dövlət büdcəsinin icrası ilə bağlı sənəd parlamentdə 3 oxunuşdan keçməlidir.

Sənədlə bağlı maliyyə nazirinin müavini Azər Bayramov ətraflı məlumat verdi. Bildirildi ki, 2018-ci il ölkə iqtisadiyyatında 1,4 faiz real artımla 79,8 milyard manat dəyərində ümumi daxili məhsul istehsal edilib. İqtisadiyyatın qeyri-neft sektorunda əvvəlki illə müqayisədə 1,8 faiz real artım əldə edilib. Qeyri-neft ÜDM-in tərkibində aparıcı rola malik kənd təsərrüfatında 4,6 faiz, turizmdə 7,6 faiz, nəqliyyat sektorunda 7,8 faiz real artım olub.

2017-ci il dövlət büdcəsinin gəlirlərinin cəmi 16 516 684 min manat, 2018-ci ildə 5 992 185,7 min manat çox - 22 508 869,7 min manat olub. Həmçinin dövlət büdcəsi xərclərinin cəmi 17 594 748 min manat, 2018-ci ildə 5 137 166,5 min manat çox - 22 731 644,5 min manat təşkil edib. Bununla yanaşı, ötən ilin dövlət büdcəsinin ehtiyat fondunun xərcləri proqnozlaşdırılandan 5,8 faiz az olub. 2018-ci ilin büdcəsində dövlət büdcəsinin ehtiyat fondunun proqnozlaşdırılan xərcləri 492 milyon 566,1 min manat olsa da, icra olunan xərclər 28 milyon 341,1 min manat az - 464 milyon 225 min manat olub. 2018-ci ildə müdafiə xərcləri 2 milyard 842 milyon 681,9 min manat təşkil edib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov ölkə iqtisadiyyatının inkişaf istiqamətləri, xüsusən də qeyri-neft sənayesində əldə edilən uğurlu göstəricilərdən söz açaraq bildirdi ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir. Dövlət başçısının sənayenin inkişafı ilə bağlı strateji xəttinə uyğun olaraq, ölkədə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasəti nəticəsində rəqabətqabiliyyətli və ixracyönümlü yüzlərlə yeni sənaye müəssisəsi yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. N.Səfərovun sözlərinə görə, ölkə iqtisadiyyatına yatırılan 17,2 milyard manatlıq investisiyanın 65 faizi qeyri-neft sektoruna yönəlib. Dövlət başçısının ölkədə sənayenin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar əsasında reallaşan layihələr artıq öz bəhrəsini verməkdədir. Ölkədə yaradılan sənaye parkları, sənaye məhəllələri ixrac potensialını artırıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov büdcənin icrası ilə bağlı rəhbərlik etdiyi qurumun hesabatını təqdim etdi və sənəd müzakirə üçün parlamentin plenar iclasına tövsiyə edildi.

İclasda həmçinin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirəyə çıxarıldı. Bildirildi ki, dövlət başçısının təqdimatı ilə parlamentə daxil olan qanun layihəsi yanğın nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamaların aparılmasına tətbiq edilən məhdudiyyətin aradan qaldırılmasını nəzərdə tutur. Hazırda qüvvədə olan qanuna əsasən, ölkədə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılıb. Lakin insanların həyat və sağlamlığının qorunması, dövlətin təhlükəsizliyinin və iqtisadi maraqlarının müdafiəsi məqsədilə bəzi hallarda yoxlamaların həyata keçirilməsinə icazə verilə bilər.

Komitədə eyni zamanda “Dövlət rüsumu haqqında” (birinci oxunuş ), “Kredit ittifaqları haqqında” (birinci oxunuş ) qanunda dəyişikliklər edilməsi barədə qanun layihələri də müzakirə edilərək Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# 3 ayda 415,3 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub

## Bu, ötən ilin eyni dövründəkindən 16,5 faiz çoxdur

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyri-neft sektorunun inkişafının əhəmiyyətini qeyd edərək demişdir: “Bu il iri sənaye müəssisələrinin açılışı olmuşdur. İki böyük zavodun - karbamid və yüksəksıxlıqlı polietilen zavodlarının açılışı bizim sənaye potensialımızı böyük dərəcədə gücləndirir. Bu zavodlarda yüzlərlə yeni iş yerləri yaradılıb... Bu, həm yeni texnologiyalardır, həm qeyri-neft sektorunun inkişafıdır, ixrac potensialımızın artırılmasıdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan sənaye istehsalı sahəsində böyük işlər görməyə qadirdir. Əlbəttə ki, sənaye istehsalı növbəti illərdə bizim üçün prioritet məsələlərdən biri olacaq”.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın 2019-cu ilin aprel ayı üçün açıqladığı hesabatda qeyd olunur ki, cari ilin birinci rübündə ixracın dəyəri 4,8 milyard dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 34 faiz çoxdur. Həmin müddətdə qeyri-neft məhsullarının ixracı isə 415,3 milyon dollarlıq olub. Bu göstərici də ötən ilin müvafiq dövründəkindən 16,5 faiz (59 milyon dollarlıq) artıqdır. Cari ilin birinci rübü ərzində Rusiyaya 115 milyon, Türkiyəyə 99 milyon, Gürcüstana 50 milyon, İsveçrəyə 33,7 milyon, İrana 12,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid məhsullar ixrac edilib. Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk 3 ayında qeyri-neft məhsullarının ixracı Rusiyaya 17, Türkiyəyə 2, Gürcüstana 58, İtaliyaya 74 faiz artıb.

Cari ilin birinci rübü ərzində ixrac edilən qeyri-neft məhsullarının siyahısında elektrik enerjisi birinci, qabığı təmizlənməmiş meşə fındığı ikinci və mahlıc üçüncü yerdə olub. Ümumiyyətlə, cari ilin yanvar-mart aylarında ixracın məbləği meyvə-tərəvəz üzrə 103,5 milyon, elektrik enerjisi üzrə 38,4 milyon, plastmas və ondan hazırlanan məmulatlar üzrə 48,4 milyon, pambıq lifi üzrə 37,7 milyon, alüminium və ondan hazırlanan məmulatlar üzrə 22,3 milyon, kimya sənayesi məhsulları üzrə 17,6 milyon, qara metallar və onlardan hazırlanan məmulatlar üzrə 11,6 milyon, alkoqollu və alkoqolsuz içkilər üzrə 7,5 milyon, pambıq ipliyi üzrə 6,4 milyon dollara çatıb. Beləliklə, hesabat dövründə ötən ilin müvafiq dövrü ilə müqayisədə pambıq lifinin ixracı 2,8, plastmas və ondan hazırlanan məmulatların ixracı 50, kimya sənayesi məhsullarının ixracı 42, pambıq ipliyinin ixracı 34, meyvə-tərəvəz ixracı 28 faiz, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,8 dəfə artıb.

“İxrac icmalı”nda cari ilin yanvar-mart ayları ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilir ki, 2019-cu ilin yanvar-mart aylarında Azexport.az portalına 178,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Təkcə bu ilin mart ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə 32,8 milyon dollardır.

Mart ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya 11,5, Türkiyə 9,9, ABŞ 7, Hindistan 6,6 və Gürcüstan 5,3 faizlə qərarlaşıb. Həmin ay ərzində ən çox ixrac sifarişi pambıq lifi, pambıq yağı, soğan, tütün, şərab, nar şirəsi, çay, qənnadı məhsulları, konservləşdirilmiş tərəvəz, kosmetik vasitə, gül, fındıq, tikinti materialı, mühərrik yağı, dondurulmuş toyuq əti, biyan kökü və s. məhsullar üzrə olub.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltif və mükafatların təqdimatı olub





Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək deyib: “Bu gün Azərbaycanda möhkəm dövlətçilik vardır. Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun da nəticəsində ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Ölkəmizdə müxtəlif sahələrdə çalışan vətənpərvər insanlar isə öz əməkləri ilə dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verirlər”.

Ali Məclisin Sədri deyib: “Dövlət və xalq qarşısında xidməti olanlar o yerdə təltif olunurlar ki, həmin ölkədə dövlətçilik ənənələri, sabitlik və inkişaf olsun. Bu gün xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin təltif olunması da ölkəmizdə dövlətçilik ənənələrinin inkişaf etdiyini göstərir. İnsan əməyinə qiymət verilərkən o daha da məhsuldar olur. Təltif olunanlar da çalışdıqları sahələrdə nümunə göstərən, öz xidmətləri ilə fərqlənən insanlardır”.

“Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verməlidir. Çünki dövlətçiliyin möhkəmlənməsi ölkənin davamlı inkişafı və sabitliyi deməkdir”, - deyən Ali Məclisin Sədri təltif olunanlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri medalları, Naxçıvan Muxtar Respublikasının fəxri adını, eləcə də Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim edib.

Təltif olunanlardan Vüsal Əliyev, Füzuli Kazımov, Tahir Mirzəliyev, Rəşad Əliyev və Səbuhi Məmmədov əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq ediblər. Qeyd olunub ki, bundan sonra da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, səmərəli fəaliyyət göstərərək ölkəmizin inkişafına töhfə verəcəklər.

Prezident mükafatçılarından Natiq Məmmədov, Əbülfəz Məmmədov, Zülfiqar Mahmudov, Zeynalabdın Babayev, Tamerlan Bağırov, Səyyad Məmmədov və Gülnarə Hüseynova minnətdarlıq edərək deyiblər ki, Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, mədəniyyətin, incəsənətin inkişafına da xüsusi diqqət yetirilir. Milli dəyərlərimiz qorunur, muğam sənətimiz, milli musiqimiz və rəqslərimiz yaşadılır. Bu sahələrdə çalışanların təltif olunması da göstərilən diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri qarşıdan dövlətçiliyimizin təməlinin qoyulduğu və elan edildiyi 28 May - Respublika Gününün gəldiyini bildirib, bu münasibətlə təltif olunanları və onların timsalında muxtar respublika əhalisini təbrik edib.

# Sərgilər Azərbaycanın nailiyyətlərini əyani şəkildə nümayiş etdirir

*Əvvəli 1-ci səh.*






Bu tədbirlərə Turizm və Səyahətlər “AITF” sərgisi ilə start verilib. Artıq öz işini başa çatdırmış “AIFT”də dünyanın 30-dan çox ölkəsini təmsil edən turoperatorlar, turizm şirkətləri, aviaşirkətlər, sanatoriyalar, milli və regional turizm təşkilatları, habelə dövlət strukturları bir araya gəlmişdilər. Sərgidə həmçinin ölkəmizin turizm potensialını xarici qonaqlara və yerli turizm şirkətlərinə nümayiş etdirən Azərbaycan stendi də fəaliyyət göstərirdi.

2019-cu ilin sərgiləri sırasında bu günlərdə Bakı Ekspo Mərkəzində işini başa çatdıran XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - “WorldFood Azerbaijan” və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgilərinin mühüm əhəmiyyəti var. Mayın 15-də Prezident İlham Əliyevin sərgilərlə tanış olması bunu bir daha təsdiqləyir.

Sözügedən iki sərgi ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına təkan verən və ən genişmiqyaslı, çox ziyarət edilən sərgilərdəndir. Belə ki, onlar regionda kənd təsərrüfatı sahəsinin inkişafına, Azərbaycanın aqrar-sənaye kompleksində mütərəqqi texnologiyaların tətbiqinə, eləcə də təcrübə mübadiləsinə, yerli və xarici təsərrüfatçılar arasında qarşılıqlı faydalı işgüzar əlaqələrin gücləndirilməsinə kömək edir.

“WorldFood Azerbaijan” və “Caspian Agro” sərgilərində Azərbaycanla yanaşı Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alıb. İtaliya, Türkiyə və Şri-Lanka tədbirə milli stendləri ilə gəliblər. Hər il bu iki sərgidə fəal iştirak edən Rusiyanın bir sıra regional qrupları yenə də yüksək səviyyədə təmsil olunublar. Belarusun milli stendinin ekspozisiyası iki zalda təqdim edilib. Burada, eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini nümayiş etdiriblər. Gürcüstan və Niderland Krallığı sərgiyə milli qruplarını göndəriblər. Bu il həm sərgi sahəsi genişlənib, həm də iştirakçıların və ziyarətçilərin sayı artıb.

Sözügedən iki sərgi ilə eyni vaxtda Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya - “Ipack Caspian”, Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar - “HOREX Caucasus” sərgiləri də fəaliyyət göstərib və uğurla yekunlaşıb. Növbədə 9-cu Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji - “Caspian Power”, 26-cı Beynəlxalq Xəzər Neft və Qaz - “Caspian Oil & Gas” sərgiləridir.

18-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika - “Transcaspian”, 9-cu Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat - “Road & Traffic” və 6-cı Xəzər Beynəlxalq Kater və Yaxtalar Sərgisi - “Kater və Yaxtalar” sərgiləri ilə mövsümə yekun vurulacaq.

Builki irimiqyaslı sərgilərdən dördü öz yubileyini qeyd edəcək. Belə ki, “WorldFood Azerbaijan”, “BakuBuild”, “Bakutel” sərgiləri 25-ci, “Caspian Ecology” 10-cu dəfə sözügedən sahələrin aparıcı mütəxəssislərini bir araya toplayacaq. Keçirildiyi illər ərzində bu sərgilər Xəzəryanı regionda lider mövqeyə çıxaraq peşəkarların ənənəvi görüş yerinə çevrilib və xeyli sayda ziyarətçi cəlb edib. Yubiley sərgilərilə bağlı xüsusi tədbirlər proqramı da nəzərdə tutulub.

Bir sıra layihələr isə bu il debütünü edir. Məsələn, “Fərqli Fərdlər” konqresinin məqsədi ictimaiyyətin diqqətini fərqli inkişaf xüsusiyyətləri olan uşaqların inkişafına və tərbiyəsinə yönəltmək, valideynlər, mütəxəssislər və pedaqoqlar arasında dialoq qurmaq, eləcə də dövlət tərəfindən müəyyən edilmiş inklüziv cəmiyyətin inkişaf təmayülünü dəstəkləmək olmuşdur.

Daha bir yeni layihə noyabr ayında “Fairmont” hotelində keçirilməsi planlaşdırılan 1-ci Azərbaycan Beynəlxalq Tibbi İnnovasiyalar - “MEDINEX 2019” sərgisi və forumu olacaq. Tədbirin məqsədi sənayenin gələcək inkişafı naminə bu sahənin, o cümlədən rəqəmsal səhiyyə sektorunun mütəxəssislərini bir araya gətirməkdir.

“WorldFood Azerbaijan” sərgisi çərçivəsində isə Azərbaycan aşpazları, Barbekyu çempionatları və dünya səviyyəli qastronomiya ustalarının təqdimatları, eləcə də ustad dərsləri keçiriləcək. Qeyd edək ki, bu il Azərbaycan aşpazlarının 2-ci konqresinin toplanması da planlaşdırılıb.

Azərbaycanda keçirilən bütün sərgilər geniş işgüzar proqram və əlavə tədbirlərlə müşayiət olunur. Sərgilərin əksəriyyəti Bakı Ekspo Mərkəzində keçirilir. Mərkəzin binası 20 min kvadratmetrdən çox ümumi sahəsi ilə 3 hektar ərazini əhatə edir. Müxtəlif sərgilər keçirmək üçün üç iri pavilyonu var. Burada konfrans zalları, biznes mərkəzi, yemək kortları və s. fəaliyyət göstərir.

Mərkəzdə sərgilərdən əlavə müxtəlif konfransların, seminarların, biznes və əyləncə tədbirlərinin keçirilməsi üçün də şərait var. Bakı Ekspo Mərkəzinin rəsmi açılış mərasimi 2010-cu il iyunun 1-də olub. Burada ilk dəfə Xəzər regionunun neft-qaz sənayesində ən böyük tədbir olan Xəzər Neft və Qaz Sərgisi keçirilib.

Bakı Eksponun fəaliyyət göstərdiyi 9 ildə burada ənənəvi Xəzər neft-qaz sərgilərinin, I Avropa Oyunları çərçivəsində qılıncoynatma, taekvondo, stolüstü tennis və karate üzrə müsabiqələrin, eləcə də bir çox digər tədbirlərin yüksək səviyyədə təşkili mərkəzin bundan sonra da uğurlu sərgilər və yarışlar məkanı olacağına zəmanət verir.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Dövlət Gömrük Komitəsi ilə BMT arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Dövlət Gömrük Komitəsi (DGK) ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Komitənin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, mayın 21-də DGK-nın sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.

Ölkə iqtisadiyyatının formalaşmasında mühüm rolu olan gömrük işinin daha səmərəli və şəffaf şəkildə qurulması istiqamətində görülən tədbirlər barədə məlumat verən S.Mehdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə gömrük sistemində həyata keçirilən islahatların Azərbaycan gömrüyünün beynəlxalq aləmdə etibarının artmasına, müasir texnologiyaların və innovativ layihələrin tətbiq edildiyi qabaqcıl və mütərəqqi quruma çevrilməsinə şərait yaratdığını vurğulayıb.

O, BMT ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında mövcud əlaqələrdən söhbət açıb və səmərəli əməkdaşlığın gömrük xidmətinin inkişafına müsbət təsirindən danışıb.

S.Mehdiyev, həmçinin Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən “Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək” layihəsinin sərhədlərin təhlükəsizliyinin gücləndirilməsinə, əmtəə və xidmət keçidlərinin asanlaşdırılmasına mühüm töhfə verdiyini bildirib.

Birgə reallaşdırılan layihələri bütövlükdə BMT İnkişaf Proqramının Dövlət Gömrük Komitəsinə xüsusi diqqət və qayğısının təzahürü kimi qiymətləndirən DGK-nın sədri bundan sonra da qarşılıqlı fəaliyyətin, birgə əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu deyib.

Q.İshaqzai təmsil etdiyi qurumun gömrük orqanları ilə əlaqəli fəaliyyətindən söhbət açıb, gömrük sistemində həyata keçirilən islahatları yüksək qiymətləndirib, Azərbaycan Gömrük Xidməti ilə əməkdaşlığın perspektivləri barədə fikirlərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# REGİONLAR



# Yeni əkin sahələri suya tələbatı artırıb





*Əvvəli 1-ci səh.*

Onların ümumi uzunluğu 203,8 kilometrdir. 39,9 kilometr təsərrüfatlararası, qalanı təsərrüfatdaxili kanallardır. Kanallar mənbəyini əsasən dağ çaylarından - Katex, Balakən, Mazımdan götürür.

Müsahibimizin sözlərinə görə, ötən dövr ərzində suvarma kanallarında 443 min kubmetr təmizləmə işləri aparılıb. Mazım-Tuqay, Balakən-Tuqay suvarma kanalları, eləcə də Talalar, Katex, Püştətala, İtitala, Şambul və Meşəşambul kəndlərinin ərazilərindəki kanallar tam təmizlənib. Balakənçayda Mahamalar kəndinin sel sularından müdafiəsi üçün qurulmuş daş-beton bəndlərdə əsaslı təmir işləri görülüb.

Qanıx çayının yatağını rayon ərazisinə dəyişməsi prosesinin qarşısının alınması məqsədilə ümumilikdə 2445 paqonometr məsafədə sahilbərkitmə işlərinin görülməsi nəzərdə tutulub. Keçən il 330 paqonometr iş görülüb və həmin işlər cari ildə davam etdirilir.

Ümumiyyətlə, kanallar hər il lildən təmizlənir. Bununla paralel olaraq selə qarşı mübarizə tədbirləri görülür. Rayonun relyefi, dağlıq ərazidə yerləşməsi də təsirsiz qalmır. Çaylarda daşqın təhlükəsi hər zaman var. Kənd sakinlərinin şəxsi təsərrüfatları, pay torpaqları bundan zərər çəkir. Belə halların qarşısını almaq üçün davamlı tədbirlərin görülməsinə ehtiyac yaranır.

Onu da qeyd edək ki, Balakənin 1450 hektar suvarılan torpaq sahəsi Şəki Artezian və Subartezian Quyularının İstismarı İdarəsinin balansındadır. Həmin idarə rayonda 132 quyu istismar edir. Ondan 70-i artezian, 62-si subartezian quyularıdır. Yeni quyular da qazılır. Hazırda belə quyulara Qazma, Şambul, Qaysa, Püştətala, İtitala və digər kəndlərdə ehtiyac çoxdur.

Əkin sahələrinin çoxalması rayonda suvarmaya tələbatı daha da artırıb. Əvvəllər bir və ya iki dəfə suvarılan sahələrin indi 3-4 dəfə, quraqlıq olanda daha çox suvarılmasına ehtiyac yaranır. Həmin tələbatı ödəmək üçün Qabaqçöl kəndində İnterçay üzərində böyük suqəbuledici qurulub və bunun sayəsində 1300 hektar torpağa su veriləcək.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Naxçıvanda dörd ayda 40 milyon 232 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub

Bu ilin yanvar-aprel aylarında muxtar respublikada 40 milyon 232 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çoxdur.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövrdə diri çəkidə ət istehsalı 7 min 940 tona, süd istehsalı isə 25 min 676 tona yaxın olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,5 faiz, süd istehsalı isə 1,6 faiz artıb.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılıb, 2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 24 milyon 51 min 100 manat məbləğində kreditlər verilib. Verilmiş kreditlərin 3 milyon 458 min 200 manatı və yaxud 14,4 faizi qısamüddətli, 20 milyon 592 min 900 manatı və yaxud 85,6 faizi uzunmüddətli kreditlər olub.

# Belə mebelləri almaq üçün növbəyə durub illərlə gözləyərdik

## "Saloğlu" mebel fabriki istehsal sahəsini genişləndirir

İlin sonunadək Ağstafada istifadəyə veriləcək "Venzana" mebel fabrikində daha 2500 iş yeri açılacaq








Qeyri-neft sektorunun inkişafına göstərilən dövlət dəstəyi, diqqət və qayğı sayəsində bölgələrdə yeni-yeni sənaye, emal müəssisələri yaradılır, daimi iş yerlərinin sayı artır. Müasir avadanlıqlarla təchiz edilmiş belə müəssisələrin yaradılması təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsinə də müsbət təsir göstərir.

Son illər bu istiqamətdə Ağstafa rayonunda da bir çox layihələr həyata keçirilmişdir. Onlardan biri "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış "Modern" mebel fabrikidir. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən fabrikdə ağac lövhələrin və laminatların kəsilməsi, quraşdırılması, mebellər üçün metal hissələrin və mexanizmlərin yığılması, yumşaq mebellər üçün taxta-karkasların, dəri və parça üzlüklərin, döşəklərin, yataq və qonaq otaqları üçün mebel dəstlərinin istehsalı sexləri fəaliyyət göstərir. Sexlərin hamısı Almaniya və İtaliyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz edilmişdir.

Müasir mebel istehsalçıları sırasında özünəməxsus yeri olan "Saloğlu" mebel fabriki qərb bölgəsində ən böyük mebel istehsalçılarından biri olmaqla bərabər, istehsal sahəsində yeni avadanlıqların və texnoloji xətlərin quraşdırılması sahəsində də seçilir. Bu istehsal sahəsinin yaradılması sayəsində fabrikdə 200 yeni iş yeri açılmışdır. Məhsulları Rusiya, Almaniya, Qazaxıstan və Gürcüstana da ixrac edilir. İxrac siyahısı bununla bitmir. Hazırda İraq, Pakistan və İtaliya şirkətləri ilə danışıqlar aparılır.

İstehsal sahələrini genişləndirmək hesabına 2500 yeni iş yeri açmaqdan ötrü müəssisənin yaxınlığında "Venzana" mebel fabrikinin təməli qoyulmuşdur. Layihə dəyəri 25 milyon manatdır. Məhsullarını daxili bazarla yanaşı, Almaniyaya, Belçikaya, Fransaya, Hollandiyaya, İtaliyaya, İspaniyaya və İsveçrəyə ixrac etmək nəzərdə tutulmuşdur. Burada ildə orta hesabla 31 min ədəd qonaq, yataq və yumşaq mebellər istehsal olunacaqdır. İşçilərin istirahəti, onların məişət şəraitinin yaxşılaşdırılması üçün burada körpələr evi-uşaq bağçasının, əyləncə və ticarət mərkəzlərinin inşası da planlaşdırılmışdır. Ərazidə mebel mərkəzi ilə yanaşı, "Yaşıl bazar" satış kompleksi və mehmanxana da tikiləcəkdir.

Müəssisənin sexlərində səliqə-sahman hökm sürür. Görülən işin keyfiyyətinə ciddi nəzarət edilir. Ustaların hamısı yüksəkixtisaslıdır. Onlar fabrikin tikildiyi müddətdə Almaniyada və Türkiyədə 6 aylıq kurs keçiblər. Bu peşəni sevərək öyrəndiklərindən indiyədək əllərindən zay məhsul çıxmayıb. Burada işçilərə gündə bir dəfə pulsuz yemək verilir və onları işə fabrikin avtobusu gətirib aparır.

Fabrikdə istehsal olunan bərk və yumşaq mebellərin materialları Rusiya, Türkiyə, Almaniya və İtaliyadan alınır. Bəzi hallarda yerli materiallardan da istifadə edilir. Alınan materiallar nəzarətdən keçirildikdən sonra qəbul edilir ki, bu da mebellərin hazırlanmasında çətinlik yaratmır.

Müəssisədə onu da öyrəndik ki, fabrikə mebel istehsalında böyük təcrübəyə malik avropalı ekspertlər dəvət olunur, onların istehsal edilən məhsullar haqqında rəyi öyrənilir və lazımi məsləhətlər alınır.

Odur ki, müəssisənin hazır məhsulları və satış salonlarındakı mebellər göz oxşayır. Onların keyfiyyətinə də söz ola bilməz. Hələlik bütün mebellər xarici dizaynerlərin təqdim etdikləri layihələrlə hazırlanır. Halbuki vaxt var idi ki, belə mebelləri almaq üçün növbəyə dayanıb illərlə gözləyər, alanda da çox baha qiymətə alardıq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Dövlət dəstəyinin bəhrəsi



Bir zamanlar ölkənin iri pambıqçılıq mərkəzi kimi şöhrət qazanmış Bərdədə ildə 100 min tondan çox pambıq istehsal olunurdu. Bir ara bu gəlirli sahə unudulub arxa plana keçdi.

Son illər dövlət səviyyəsində pambıqçılığın inkişafına verilən dəstəyin nəticəsi indi göz qabağındadır. Heç bir torpaq mülkiyyətçisi pambıq əkməyə məcbur edilməsə də, bu gəlirli sahəyə kəndlilər böyük maraq göstərirlər. Ona görə ki, istehsal edilən məhsulun həm satınalma qiymətləri sərfəlidir, həm də etibarlı bazar var. Bizim fermer təsərrüfatı keçən il 42 hektar sahədə pambıq əkib-becərdi. Orta hesabla hər hektardan 36 sentner məhsul götürüb qəbul məntəqəsinə 150 tondan çox pambıq təhvil verdik. Bu il də 42 hektar sahədə pambıq əkmişik.

Onu da qeyd edim ki, bizim fermer təsərrüfatı əsasən taxıl toxumçuluğu istiqamətində ixtisaslaşıb. Taxılçılıq sahəsində qazandığımız nəticələr də fərəhlidir. Keçən il 312 ton taxıl istehsal etdik. Bunun çox hissəsini toxum kimi ayrı-ayrı təsərrüfatlara, torpaq istifadəçilərinə satdıq. Taxıl əkdiyimiz 120 hektar sahədən bu il daha yüksək məhsul gözləyirik.

İstehsal etdiyimiz bol məhsulun qarşılığında yaxşı qazanır, ailəmizin firavan həyatını, xoş güzəranını təmin edirik. Digər tərəfdən, dövlət dəstəyi bizə qol-qanad verir, yeni nailiyyətlərə ruhlandırır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, keçən il istehsal etdiyimiz taxıl və pambıq məhsuluna görə dövlətdən 33 min manatdan çox subsidiya almışıq.

İndi yaz-tarla işlərinin qızğın çağıdır. Qarşıya məqsəd qoymuşuq ki, bu il həm taxıl, həm də pambıq istehsalında göstəriciləri bir qədər də yaxşılaşdıraq.

***Salman MUSAYEV,***
***Bərdə rayonunda "Kəhrəba" kəndli-fermer təsərrüfatının rəhbəri***



Əvvəlki illərdə olduğu kimi, bu il də Ağdaşda rayon üçün ənənəvi sahələrdən olan baramaçılığın inkişafı istiqamətində real addımlar atılır. Qeyd edək ki, Ağdaş hələ qədim zamanlardan kümçülüklə məşğul olan bölgələrdəndir. Ötən əsrin 80-ci illərində rayon kümçüləri qəbul məntəqələrinə təxminən 200 ton barama təhvil vermişlər. Əvəzində qazancları da yaxşı olub. Bu hesaba ev tikiblər, oğul evləndiriblər.



# Kümçülər iş başındadır

## Bu il Ağdaşda 25 ton barama tədarükü proqnozlaşdırılır



Lakin dövlət müstəqilliyimizin bərpasının ilk illərində aqrar sektorun bir sıra sahələri kimi, baramaçılıq da unuduldu. İnsanların bu sahəyə marağı azaldı.

Atalar "su gələn arxa bir də gələr" deyiblər. Prezident İlham Əliyevin tövsiyəsi və tapşırığından sonra 2016-cı ildən başlayaraq Azərbaycanda ənənəvi kənd təsərrüfatı sahələri, o cümlədən baramaçılıq dirçəlməyə başlayıb. Təkcə Ağdaşda 2016-cı ildə 2 ton 35 kiloqram, 2017-ci ildə 6 ton, keçən il 11 ton 500 kiloqram barama istehsal edilib.

Cari ildə rayonda 25 ton həcmində barama tədarük edilməsi hədəf kimi qarşıya qoyulub. Bu məqsədlə 625 qutu ipəkqurdu toxumu götürülüb. Onlara xidmət edilməsi üçün 310 nəfər kümçü seçilib. Ümumilikdə isə prosesdə təxminən 1200 sakinin iştirakı gözlənilir. Yəni əgər bir ailə orta hesabla 100 qram ipəkqurdu götürübsə, bu işə orta hesabla 3-4 nəfər cəlb olunur.

İpəkqurdunun yeganə yem mənbəyi olan tut yarpaqları ilə təminatında da ciddi problem yoxdur. Əvvəlki illərdən qalan gər ağacları yaxşı yarpaq verir. Bundan əlavə, son 3 il ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi və Çin Xalq Respublikasından gətirilən tut tingləri də var. Ümumilikdə indiyədək rayonda 25 hektar sahədə tut tingi əkilib.

Şordəhnə kəndində yeni məktəb tikildiyi üçün köhnə məktəb binasından kümxana kimi istifadə olunur. Kəndin inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məzahir Paşayev dedi ki, baramaçılıq bu kənd üçün ənənəvi sahələrdəndir. Sovetlər dönəmində kəndin kümçüləri yaxşı nəticələr qazanıblar. Hətta hər qram ipəkqurdu üçün 3 kiloqram barama verilən zamanlar olub. Şordəhnəlilər bu il üçün 100 qram ipəkqurdu götürüblər. Hələlik bu işlə 3 nəfər məşğul olur. Amma günəmuzd işçilər də var. Lazım gəlsə, əlavə işçi qüvvəsinin cəlb edilməsi də mümkündür.

Kənddə yem bazası da yaradılır. 5 hektar ərazidə 9 min ting əkilib. Tinglər hamısı normal inkişaf edir. Yeni tinglər məhsula düşəndən sonra kəndin kümçüləri daha çox ipəkqurdu bəsləyəcəklər.

***Ə.SƏLİMOV,***
***"Azərbaycan"***

# Turizm mövsümü yol təsərrüfatı müəssisələrinin də işini artırır

Əsasən dağlıq və dağətəyi ərazilərlə əhatə olunan, şimal-qərb bölgəsinin mirvarisi sayılan Qax rayonunda yol infrastrukturunun normal vəziyyətdə olmasına həmişə həssas yanaşılıb. Dövlət dəstəyi sayəsində yeni yolların salınması və mövcud olanların yenidən qurulması istiqamətində əhəmiyyətli addımlar atılıb.





13 saylı Yol İstismar İdarəsinin baş mühəndisi Rövşən Heydərov deyir ki, son illər Qax rayonunun yol infrastrukturunda keyfiyyət dəyişikliklərinə nail olmaq üçün zəruri addımlar atılır. Cari il üçün nəzərdə tutulan ən mühüm layihə Yevlax-Zaqatala-Gürcüstan sərhədi avtomobil yolunun 96-cı kilometrliyindən Qax-İlisu istiqamətində yolun tikintisidir. Hazırda bu yöndə işlər görülür.

Yolun ümumu uzunluğu 35,5 kilometrdir. Həmin marşrut üzərində olan yolların da hər birinin təmiri nəzərdə tutulur. Bunlara Turaclı, Qaraməşə, Əmircan və Meşəbaş kəndləri daxildir. Artıq kəndlərin giriş yollarında torpaq işləri yekunlaşıb, müxtəlif diametrli suötürücü boruların təmiri tamamlanıb, iki yol asfalt-beton örtüyün çəkilməsi üçün hazırlanıb. Hava şəraiti imkan verən kimi həmin işlərin ən yüksək səviyyədə icrası düşünülür.

Qax rayonu ərazisindəki turizm infrastrukturu əsasən İlisu kəndi ərazisində cəmləşib. Odur ki, bu istiqamətdə yolların yenidən qurulması həm də turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək. Cari ilin sonuna kimi layihə üzrə nəzərdə tutulan işlərin yekunlaşması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, Qax Yol İstismar İdarəsi 181 kilometrlik yerli əhəmiyyətli yollara xidmət göstərir. Bu il idarə Qorağan-Qax-Zaqatala avtomobil yolunun bir hissəsini əsaslı təmir edəcək. Bu hissə 13,2 kilometrdir. Yolun Qax-Zaqatala arasındakı hissəsi isə 2016-2017-ci illərdə yenidən qurulub.

***Əli XASAYOĞLU,***
***"Azərbaycan"***

# Milli Azərbaycan Tarixi Muzeyində Sara Tağıyevanın 120 illiyi qeyd olunub





Mayın 21-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin qızı Sara Tağıyevanın anadan olmasının 120 illiyinə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə muzeyin direktoru, akademik Nailə Vəlixanlı Sara Tağıyevanın keşməkeşli, eyni zamanda, şərəfli ömür yolundan danışıb, onunla bağlı xatirələrini söyləyib.

MATM-ın elmi katibi, dosent Fərhad Cabbarov Sara Tağıyevanın atası Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyətinin tanıdılmasında rolu və muzeyin fondlarında ona aid qorunan zəngin sənədli materiallar haqqında məlumat verib.

Tədbirdə çıxış edən "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva Hacı Zeynalabdin Tağıyevin böyük mesenat olduğunu deyib. Vurğulayıb ki, "Kaspi" qəzetinin milliləşdirilərək nəşr etdirilməsində Hacı Zeynalabdin Tağıyevin müstəsna xidmətləri olub. Qəzet ictimai şüurun, milli təfəkkürün inkişafında mühüm rol oynayıb.

Sona Vəliyeva, həmçinin Hacı Zeynalabdin Tağıyevin geniş xeyriyyəçilik fəaliyyəti göstərdiyini, maarifçiliyin inkişafına daim böyük dəstək verdiyini qeyd edib. Məşhur xeyriyyəçinin qızı Sara Tağıyevanın anadan olmasının 120 illiyinə həsr edilən tədbirin əhəmiyyətini vurğulayıb.

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyə Əhmədova Sara Tağıyevanın keçdiyi ömür yolu ilə bağlı fikirlərini bölüşüb.

Kinorejissor Ayaz Salayev, Xəzər rayonu H.Z.Tağıyev adına 123 nömrəli orta məktəbin direktor müavini Gülnarə Əzimova, tədqiqatçı Fuad Axundov, Tağıyev nəslinin yaxınlarından olan Elnur Musazadə və digər çıxış edənlər də Sara Tağıyevanın xidmətlərindən danışıblar.

Sonra Sara Tağıyeva haqqında televiziya filmindən fraqmentlər nümayiş etdirilib. Muzeyin nəzdindəki "Hacı Zeynalabdin Tağıyev klubu"nun üzvlərinin ifasında Teyyub Qurbanlının "Sara" poeması əsasında ədəbi-bədii kompozisiya göstərilib. Klubun üzvlərinə sertifikatlar təqdim olunub.

# UEFA Avropa Liqasının kuboku Cocuq Mərcanlıda






Avropa Liqasının kuboku Gəncə şəhərindən sonra mayın 21-də Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə gətirilib. Avropa Liqasının kubokunu yaxından görmək və şəkil çəkdirmək istəyən kənd sakinləri, futbol azarkeşləri üçün "Qayıdış" parkında şəkil zonası, "Qarabağ" klubunun və Azərbaycan millisinin üzvü Qara Qarayevlə avtoqraf sessiyası təşkil olunub.

Azyaşlı qonaqlar üçün face-art, animator və oyunlar, futbol üzrə ustad dərsləri və digər əyləncələr maraqla qarşılanıb. Bayram ab-havasının yaradılması üçün tədbirdə ölkədə tanınan DJ AKG iştirak edib.

Qeyd edək ki, Avropa Liqasının mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək finalında İngiltərənin "Arsenal" və "Çelsi" komandaları qarşılaşacaq.

# "Sərhəd" hərbi-idman oyununun respublika birinciliyinin final mərhələsinin təntənəli açılışı olub





Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Lənkəran Sərhəd Dəstəsində Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş "Sərhəd" hərbi-idman oyununun respublika birinciliyinin final mərhələsinin təntənəli açılış mərasimi keçirilib.

Mərasimdən əvvəl yarış iştirakçıları ümummilli liderin Lənkəran şəhərindəki abidəsini ziyarət edib, Heydər Əliyev Mərkəzində ulu öndərin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən zəngin eksponatlarla tanış olublar.

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi ərəfəsində keçirilən tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən müasir standartlar səviyyəsində mühafizə etməyə qadir olan quruma çevrildiyini qürur hissi ilə vurğulayıblar.

DSX-nin, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə tədbirlər planı əsasında hər il ənənəvi olaraq keçirilən "Sərhəd" hərbi-idman oyunlarının gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında, mənəvi və fiziki cəhətdən sağlam gənclərimizin yetişdirilməsində, onlarda Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında və sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynadığı xüsusi qeyd edilib.

Üç mərhələdə keçirilən "Sərhəd" hərbi-idman oyunlarına bu il respublikamızın 36 rayonunun 207 məktəbindən 1035 şagird qatılıb. İlk iki mərhələnin yekunlarına görə 10 komanda - Naxçıvan şəhərinin 9 nömrəli, Astara şəhərinin 2 nömrəli, Mingəçevir şəhərinin İ.Qayıbov adına 10 nömrəli, Siyəzən şəhərinin 1 nömrəli, Beyləqan rayonunun Arza qəsəbəsinin F.Miriyev adına, Cəlilabad rayonunun Ləkin, Xaçmaz rayonunun Gödəkli, Oğuz rayonunun Muxas, Zaqatala rayonunun Muğanlı, Şəmkir rayonunun Çaparlı kəndlərinin tam orta məktəblərinin komandaları finala vəsiqə qazanıblar.

"Sərhəd" hərbi-idman oyununun final mərhələsində komandalar "Sərhəd pozucusunun yaxalanması və onun təxliyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması", "Avtomatın sökülməsi və yığılması", "Tüfəngdən hədəfə atəş açmaq" və "Sıra hazırlığı" üzrə öz bilik və bacarıqlarını nümayiş etdirəcəklər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olacaq, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil olunacaq, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçiriləcək.

***"Azərbaycan"***

# Bakıda əfsanəvi ingilis personajlarının paradı keçirilir

Dünən UEFA Avropa Liqasının Bakıda keçiriləcək final matçı ilə əlaqədar yerli Təşkilat komitəsi paytaxtda maraqlı layihəyə start verib.



Belə ki, mayın 29-u - final qarşılaşmasının keçiriləcəyi günə qədər əfsanəvi ingilis personajları - Ceyms Bond, Böyük Britaniya Kraliçası II Elizabet, onun mühafizə dəstəsi, "Bitlz" rok qrupunun, dünya şöhrətli komediya ustası Çarli Çaplin, "Queen" qrupunun vokalisti Freddi Merküri, "Alisa möcüzələr diyarında" əsərinin qəhrəmanları, Harri Potter və dostları, ingilis xalqının sevimli nağıl qəhrəmanı - Robin Qud, dahi dramaturq Uilyam Şekspir, xəfiyyə Şerlok Holms və digərləri Bakının müxtəlif yerlərində musiqili parad nümayiş etdirəcəklər.

Dünənki parad "Port Baku Mall"dan başlayaraq Kukla Teatrını, Nizami küçəsini, Qoşa Qala qapısını əhatə edib. Paradın qəhrəmanları sakinlər tərəfindən maraqla qarşılanıb, onlarla şəkillər çəkdirilib. Personajların növbəti günlərdə Bakının hansı səmtində gəzintiyə çıxacağı sürpriz olduğu üçün ictimaiyyətə açıqlanmır.

Tanınmış ingilis qəhrəmanların personajlarının sonuncu dayanacağı mayın 29-da UEFA Avropa Liqasının final qarşılaşmasının keçiriləcəyi Bakı Olimpiya Stadionu olacaq.

# *Bakı Şəhər İcra Hakimiyyəti:* "Tarqovı"nın bağlanması ilə bağlı məlumatlar həqiqətə uyğun deyil

Bakı Şəhər İcra Hakimiyyəti mayın 25-dən 31-nə qədər "Tarqovı"ya yerli sakinlərin buraxılmaması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

Bununla bağlı icra hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov AZƏRTAC-a açıqlamasında deyib: "Bəyan edirik ki, bu barədə mətbuatda verilən məlumatlar həqiqətə uyğun deyil və hər hansı məhdudiyyət tətbiq edilməyib. Belə məlumatlar şəbəkə təxribatı xarakteri daşıyır. Futbol kütlələrin baxdığı, azarkeşlik etdiyi oyundur. Onu hamı sevir və hər hansı məhdudiyyət yolverilməzdir. Əksinə, həmin gün şəhərdə bayram əhvali-ruhiyyəsi hökm sürəcək, müxtəlif tədbirlər keçiriləcək".

# N.Paşinyanla separatçılar arasında münasibət gərginləşir

## Ermənistan parlamenti məhkəmə binalarına giriş-çıxışın bağlanması məsələsini müzakirəyə çıxarır

***Əvvəli 1-ci səh.***

Məhkəmə hakimiyyətindən sonra növbə mediaya çatacaq".

Əslində Ermənistanın keçmiş prezidenti Robert Koçaryan barəsində həbs qətimkan tədbirinin ləğvi məhkəmə sistemində dəyişikliklərin edilməsi ilə bağlı aksiyaların başlaması üçün qığılcım da sayıla bilər. İnqilab nəzərdə tutduğu hədəflərə bütün sistemi dəyişdiyi halda çata, yaxud həmin istiqamətdə uğur əldə edə bilər.

Ermənistanda bir il əvvəlki mürəkkəb hadisələr fonunda parlament seçkiləri keçirildi. Nikol Paşinyanı dəstəkləyən siyasi qüvvələr bu kampaniyadan qalib çıxdılar. Ancaq Ermənistanda hakimiyyətin üç qolundan ikisinə onlar nəzarət etsələr də, məhkəmə sistemi köhnə rejimdən qalmadır. Paşinyan da xalqa son müraciətində ədliyyə sistemini qeyri-legitim adlandıraraq onu köhnə rejimin mirası sayıb. Ona görə də bu sistemdə inqilabın tələblərinə uyğun olaraq dəyişikliklərin aparılmasının vacibliyi gündəliyə çıxıb.

Qeyd edək ki, artıq bu gün Ermənistan parlamentinin növbədənkənar iclasının keçirilməsi planlaşdırılır. "İşıqlı Ermənistan" partiyasının mətbuat katibi Aren Petuns bildirib ki, partiyanın 18 deputatının təşəbbüsünə milyarder-deputat Qagik Sarukyanın "Çiçəklənən Ermənistan" partiyasına parlamentdəki "Sarukyan" fraksiyasının deputatları da qoşulub. Onlar Ermənistanın baş naziri Nikol Paşinyanın çağırışı ilə məhkəmə binalarına giriş-çıxışın bağlanması məsələsini müzakirə edəcəklər.

Ermənistan mediası yazır ki, yaşananlar arasında ən təhlükəli məqam Qarabağ separatçıları ilə Ermənistan arasında münasibətlərin gərginləşməsidir. Hesab edilir ki, bu durumda keçmiş hərbi xunta günahkardır və bura daxil olanlar Nikol Paşinyanı devirməkdə israrlıdırlar. Ermənistanın eks-prezidenti Robert Koçaryanın həbsdən azad edilməsi isə bunun başlanğıcı sayılır.

Xatırladaq ki, sabiq dövlət başçısının azadlığa buraxılması barədə qərar verilib. Qarabağ separatçılarının lideri Bako Saakyan və onun sələfi Arkadi Qukasyan məhkəməyə şəxsi zəmanətlərini təqdim ediblər. Onlar birbaşa məhkəmə zalında zəmanət verərək hərəsi 500 min dram və ya təxminən 1000 dollardan bir az çox təzminat ödəyiblər.

Bunlar isə Ermənistanın baş naziri Nikol Paşinyanı ciddi şəkildə narazı salıb. Məlumata görə, Paşinyan Qarabağ separatçılarının rəhbəri Bako Saakyanla görüşü zamanı ondan niyə Robert Koçaryana zamin dayanmasının izahını tələb edib. "Qraparak" qəzeti bu xüsusda yazır: "Paşinyanın izahat tələbinə Saakyan onların Qukasyanla davranışında heç bir siyasi məqsəd olmadığını və yalnız humanizm göstərdiklərini deməklə kifayətlənib. Paşinyanla bərabər Saakyan "Mənim addımım" blokunun deputatları ilə də görüşüb və onlara Qarabağda əks-inqilabın hazırlanmadığına zəmanət verib. Amma vəziyyət hər an dəyişə bilər".

"Joxovurd" qəzeti Saakyanla deputatların görüşünün gərgin keçdiyini yazıb. Buna rəğmən qəzet bildirir ki, artıq Paşinyan Saakyanı əvəzləməkdə qərarlıdır və namizəd də tapıb. Bildirilir ki, məhz belə bir vaxtda Qarabağ separatçılarının keçmiş "baş naziri" Araik Arutyunyan rejimin rəhbərliyinə namizədliyini irəli sürüb.

Araik Arutyunyan separatçılar arasında nüfuzlu şəxslərdən sayılır. Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra Arutyunyan səssiz mövqe tutub və Paşinyan hökumətinə qarşı heç bir sərt ittiham səsləndirməyib. Məhz bu amilə görə sonradan hökumətə yaxın mətbuat Arutyunyanın qondarma rejimə Saakyanın yerinə rəhbər gətiriləcəyi haqqında məlumat yayıb.

Hazırkı separatçı rejim daxilində hakimiyyət uğrunda mübarizə Koçaryan və Paşinyanın dəstəklədiyi simalar arasında aparılır. Belə ki, bu mübarizədə Koçaryan klanının Vitali Balasanyanı, Paşinyanın isə Arutyunyanı dəstəklədiyi iddia edilir. Saakyan, təkzib etməsinə baxmayaraq, Paşinyana qarşı hərəkatın daxilində yer alır.

Odur ki, separatçı rejimlə Paşinyan arasında gərginliyin daha da dərinləşməsi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikasının Mərkəzi Bankı
### *kotirovka sorğuları elan edir*

1. Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında su xətlərinin yenilənməsi işlərinin satın alınması.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən geyimlərin satın alınması.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün İP telefon aparatlarının və zəruri modulun satın alınması.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün seyflərin satın alınması.

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 03 iyun 2019-cu il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və zərflər 04 iyun 2019-cu il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs: Elvin Şirdanov, telefon: (012) 493-11-22 (daxili 428).

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2019-cu il üçün
### *kotirovka sorğusu elan edir*

• Qapıüstü şüşə lövhələrin hazırlanması.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 24 may 2019-cu il saat 17:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:

• Nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
• Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
• Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
• Vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
• Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün).

Ünvan: AZ1005 Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.
Əlaqələndirici şəxs: Firudin Məsməliyev.Telefon: (+99412) 497-41-66.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 12 aprel, 13 aprel və 26 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına tikinti materiallarının 3 LOT üzrə LOT 1- Dolğu mallarının, LOT 2 -Son tamamlama materiallarının və LOT 3 - Beton məmulatlarının və sementin satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 10 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 11 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Bakı şəhər Məşğulluq İdarəsi Bakı şəhəri ərazisində əmək yarmarkalarının, əmək birjalarının təşkili üçün malların (iş və xidmətlərin) kotirovka sorğusu üsulu ilə satın alınmasını elan edir.***

Sorğuda iştirak etmək istəyənlər müraciət edə bilərlər. Kotirovka sorğusunda iştirak üçün sənədlər 27 may 2019-cu il saat 12:00-dək qəbul olunur.

Zərflərin açılışı 27 may 2019-cu il saat 15:00-da idarənin inzibati binasında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Kamal İbrahimov. Tel: (012) 562-11-23**
**Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, S.Bəhlulzadə küçəsi, 44, 7-ci otaq.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin mexanizmlər və avadanlıqlar üçün ləvazimatların satın alınması məqsədilə keçirdiyi açıq tenderdə Tender komissiyasının 8 may 2019-cu il tarixli yekun protokoluna əsasən "GN PETROL-S LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi bir ədəd pikap tipli minik avtomobilinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsinin Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412-598-21-37) ünvanından ala bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat.**

**VÖEN: 9900038911**
**H/h: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 iyun 2019-cu il saat 17:00-a** kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 iyun 2019-cu il saat 17:00-a** kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər:

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 iyun 2019-cu il saat 11:00-da** Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

- **LOT 1 - İdarənin digər xərcləri**
- **LOT 2 - Müxtəlif çeşidli yuyucu maddələr**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (Telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı:
**LOT 1 - 250 manat**
**LOT 2 - 50 manat**
**Satınalan təşkilat: Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN:1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu **- 142340**
Büdcə səviyyəsinin kodu **- 7**
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **28 iyun 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr, Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **01 iyul 2019-cu il saat 15:00-da Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC reklam mallarının satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Reklam mallarının satın alınması**

**İştirak haqqı - 200 manat**

**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN:9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T:AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 iyul 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 iyul 2019-cu il saat 15:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**Avtonəqliyyat vasitələrinə texniki xidmət, eləcə də sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi xidmətlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**250 (iki yüz əlli ) manat iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kod: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **28 iyun 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **01 iyul 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Faiq Məmmədov, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## "Azərişıq" ASC 35/6 kV-luq 206 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** 35/6 kV-luq 206 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 10 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 iyul 2019-cu il saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə əzizi

**ELZA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Siyəzəndən Novruz Novruzov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov və Süreyya Abdullayeva Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı və YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev deputat həmkarı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "46 N-li Yol İstismarı" MMC-nin direktoru Xudayar Rəhimova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil Nazirliyinin rəhbərliyi AMEA-nın vitse-prezidenti İbrahim Quliyevə bacısı

**ELZA FƏRƏCOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev və bölmənin kollektivi AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə bacısı

**ELZA FƏRƏCOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Arif Əliyev və "İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyət Bank olmayan Kredit Təşkilatının kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9055
Sifariş 1706
Qiyməti 40 qəpik